RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 66 (8382) CÜMƏ, 10 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Prezident İlham Əliyevin genişmiqyaslı iqtisadi və sosial paketi sahibkarları və həssas təbəqəyə aid olan vətəndaşları koronavirus böhranından qoruyacaq

Koronavirusun dəhşətli fəsadları getdikcə daha böyük miqyas alır. 209 ölkədə yayılan pandemiya təkcə insan tələfatı ilə deyil, həm də ölkələrin iqtisadiyyatına ciddi ziyan vurması ilə müşahidə olunur. Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan da dünya ölkələri kimi yeni sınaq, yeni çağırışlarla üz-üzədir. Bu səbəbdən də dövlət infeksiyanın təsirlərindən az itki ilə çıxmaq üçün ciddi şəkildə mübarizə aparmaqdadır.

### Dövlət başçısından 2,5 milyard manatlıq dəstək

Həyata keçirdiyi məqsədyönlü, uzaqgörən siyasəti ilə Azərbaycanı bütün çətin sınaqlardan üzüağ çıxaran Prezident İlham Əliyev bu çətin dövrdə də ölkədə makroiqtisadi sabitliyin qorunması və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atır. Dövlət başçısının yeni iqtisadi və sosial paketi çətçivəsində hazırlanan dövlət dəstəyi proqramları da prosesin tərkib hissəsidir.

Maliyyə həcmi 2,5 milyard manat olan yeni sənədləri müstəqillik tariximizin ən böyük iqtisadi dəstək proqramı adlandırırlar.

Təqdim edilən yeni təkliflər genişmiqyaslıdır və bu gün pandemiyadan zərər çəkmiş sahələrdə işləyən vətəndaşların maraqlarını nəzərə alır. Yəni bir qrup şəxsin əməkhaqlarının əhəmiyyətli hissəsi müvəqqəti olaraq dövlət tərəfindən ödəniləcək.

Dövlət başçısının sərəncamına əsasən, ölkədə məşğulluğun və sosial rifahın dəstəklənməsi istiqamətində hazırlanan proqramlar çoxşaxəlidir.

### Sosial proqramlar 1 milyon 900 min vətəndaşı əhatə edəcək

Pandemiyanın ölkədə məşğulluğa, sosial sahəyə vurduğu zərərin aradan qaldırılması üçün Prezident İlham Əliyevin tapşırığı ilə dövlət büdcəsindən 1 milyard manat vəsait ayrılıb. Bununla bağlı 4 işçi qrup yaradılıb və hər bir istiqamət üzrə tədbirlər planı hazırlanıb. Aprelin 4-də Baş Nazir Əli Əsədov həmin tədbirlər planını təsdiq edib. Ümumilikdə məşğulluq, sosial məsələlərə dair dörd istiqamət üzrə 10 tədbir nəzərdə tutulub. Bu da 1 milyon 900 min vətəndaşı əhatə edəcək.

Sosial sahədə dayanıqlılığın qorunması üçün ümumilikdə istifadə olunacaq vəsait 394 milyon manatdır. Bu məbləğin 100 milyon manatı dövlət büdcəsindən, 203 milyon manatı Dövlət Sosial Müdafiə Fondundan, 91 milyon manatı isə işsizlikdən sığorta fondundan istifadə ediləcək.

Hazırda ölkəmizdə dövlət sektorunda əmək müqaviləsi ilə 910 min insan çalışır. Qeyri-dövlət sektorunda əmək müqaviləsi ilə işləyənlər 660 min nəfər təşkil edir.

Ardı 4-cü səh.

## Koronavirus pandemiyasına qarşı Azərbaycan Respublikasında həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün vəsait ayrılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Koronavirus pandemiyasının yayılmasının qarşısının alınması və onunla mübarizənin gücləndirilməsi məqsədilə zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 97,0 (doxsan yeddi) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2020-ci il*

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçiriləcəkdir.

Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunacaqdır.

## Koronavirusla mübarizədə qətiyyətli addımlarına görə Prezident İlham Əliyevə çoxsaylı minnətdarlıq məktubları ünvanlanır

Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir. Bu istiqamətdə atdığı qətiyyətli addımlara, xalqımıza göstərdiyi diqqət və qayğıya görə respublikamızın bütün guşələrindən dövlət başçısına çoxsaylı minnətdarlıq məktubları ünvanlanır. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Bakı şəhəri, Sabunçu rayonunun sakini, şair-jurnalist **Rauf Alagezov** ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması üçün göstərdiyi səylərə görə özünün və ailəsinin, həmçinin on minlərlə oxucusunun adından dövlət başçısına təşəkkür edərək yazır: "Hörmətli cənab Prezident, bir yaradıcı şəxs, Prezident təqaüdçüsü, şair-jurnalist olaraq Sizin gördüyünüz işləri diqqətlə izləyir, buna görə Sizə minnətdarlığımı bildirirəm. Hər zaman Sizin xidmətinizdəyəm. Daim var olun, cənab Prezident!"

Qazax rayon sakini **Akif Əmirov** yazır ki, dövlət başçısı Azərbaycanın gündən-günə inkişaf etməsi, dünya dövlətləri arasında siyasi nüfuzunun artması istiqamətində çox böyük işlər görür və bu işlər xalqımız tərəfindən minnətdarlıq hissi ilə qarşılanır.

Ardı 4-cü səh.

### Milli Məclisin iclasında

## Nazirlər Kabineti ötənilki fəaliyyəti barədə hesabat verdi



Aprelin 9-da Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyi təqdim edib.

Gündəlik təsdiq olunduqdan sonra çıxış edən Milli Məclisin Sədri bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni bir humanist addım atdığını bildirərək deyib: "Dövlət başçısının imzaladığı sərəncama əsasən, ölkəmizdə koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan 65 yaşından yuxarı 176 nəfər məhkum əfv edilib.

Ardı 2-ci səh.

### *Baş redaktordan*

## 3. Səbrin kimi qəzəbin də böyükdür!

Çox haqsızlıqları gördün - səbir etdin!

Çox güclülərin zəifləri tapdaladığını seyr etdin, səbir etdin!

Çox zalımların azğınlığına şahid oldun - səbir etdin!

**Səbrin özün qədər necə də böyükmüş, İlahi!**

*Gözlədin ki, haqsızlar düz yola qayıdar - gəlmədilər!*

*Gözlədin ki, güclülər zəiflərə rəhm etməyə başlayarlar - etmədilər!*

*Gözlədin ki, zalımlar, yolunu azmışlar, qudurmuşlar insafa, mürvətə dönərlər, fağıra, yoxsula, imkansıza kömək əli uzadarlar - uzatmadılar!*

*Bəlkə rəngli inqilabların aqibəti Səni razı salmadı...*

*Bəlkə din qardaşlarının bir-birinin qatilinə çevrilməsi xoşuna gəlmədi....*

*Bəlkə neft uğrunda savaşın bitməyəcəyini gördün...*

*Bəlkə özün işə qarışmasan dünyanın düzəlməyəcəyinə əmin oldun...*

*Bəlkə suriyalı uşağın hər şeyi Sənə açıq və səmimi danışması səbir kasanı daşdırdı...*

Biz bəndələr bunları bilə bilmərik, İlahi!

**Amma kükrəyən qəzəbinin böyüklüyü bizi qorxutdu!**

**Göndərdiyin koronavirus adlı bəlanın vahiməsi canımıza üşütmə, qızdırma saldı, bizi təngnəfəs edərək ciyərlərimizi dağıtdı!**

Nə ölkə, nə dövlət, nə sərhəd, nə millət, nə dövlətli və kasıb tanımayan bu bəla hələ yüngül barmaq silkələməsidir - bunu dərk edirik!

Sən demə, zəlzələlər, daşqınlar, meşə yanğınları, sunamilər xırda-para xəbərdarlıqlar imiş!

Sadəcə, bizlər həmin xəbərdarlıqları başa düşməmişik!

Elə sanmışıq ki, bütün bunlar kortəbii hadisələr, öz-özünə baş verən təbiətin kataklizmaları imiş!

Zəlzələdə evi dağılanlar - evsiz qalır!

Meşə yanğınlarında meşəli ərazidə yaşayanlar - bütün əmlaklarını itirir.

Çaylar daşanda, torpaqlar sürüşüb üzərindəki evlər və binalarla bərabər axanda - hamı hər şeydən məhrum olur!

*Düşmən hücum edəndə, şəhər və qəsəbələr topa-mərmiyə tutulanda isə evlər sakinlərsiz qalır, insanlar qaçqına, məcburi köçkünə çevrilərək yollara, düzlərə tökülür, işsiz, çörəksiz, hüquqsuz, müdafiəsiz qalıb, əslində, digər canlılarla bir sıraya düzülmüş olurlar.*

❖ ❖ ❖

**Bilən yox idi ki, nə vaxtadək haqsızlıq, ədalətsizlik, insafsızlıq, qəddarlıq, zalımlıq, tamahkarlıq, özbaşınalıq və cəzasızlıq davam edəcəkdi?!**

**Göndərdiyin bircə virus - koronavirus az bir vaxtda insanları silkələyib ayıltdı, bir qədər durdurdu!**

Əvvəlcə ona elə-belə baxdılar!

Boşuna verdilər!

"Bizə heç nə olmaz" - dedilər!

Başqa növ qriplər kimi ötəri xəstəlik saydılar!

**Anlamadılar ki, bu, İlahi qəzəbdir!**

**Anlamadılar ki, bu, səbrin tükənmə əlamətidir!**

**Anlamadılar ki, bu, növbəti "təmizləmə əməliyyatı"dır!**

Anlayanda şoka düşdülər!

Anlayanda başlarını itirdilər!

Anlayanda qaçıb gizlənməyə yer axtardılar!

Amma görün bütün təbəqədən olanları, bütün pillələrdə dayananları, bütün növ kresloda oturanları necə tutub yaxaladı!

Hələ çoxu başa düşməyib ki, milyonlar, milyardlar, trilyonlar Allahın qəzəbinin qarşısına sədd çəkə bilməz!

Hələ çoxu anlamayır ki, bu yalnız başlanğıcdır!

Hələ heç kim bunun nə qədər davam edəcəyini, necə və nə ilə sonuclandığını bilmir!

Təxminlər var, ekstrasens açıqlamaları ara-sıra səslənir, gümanlar, fərziyyələr eşidilir...

Görünən isə odur ki...

❖ ❖ ❖

**İndi nə qanlı, nə də təmiz neft pula gedir...**

**İndi adamlar pul hayından çox, can hayındadırlar...**

**İndi insanlar küçədə gəzməyə, səyahətə çıxmağa, restoranlarda yeyib-içməyə belə qorxurlar!**

Heç buna imkan verən də yoxdur!

Deyəsən ən təhlükəsiz yer öz evimiz imiş!

Onda evləri olmayanlar və dağıdılanlar nə etsinlər?

Bax, Allahın qəzəbi buna tutub!

*Görün dünyada nə qədər qapısı bağlı boş ev qalacaq!*

*Görün dünyada nə qədər zülmlə yığılmış pullar xərclənməmiş qalacaq!*

*Görün dünyada nə qədər zalım bir udum hava ala bilməyib boğulacaq!*

*İlahi qəzəb belə olur!*

❖ ❖ ❖

**Özün rəhm elə yaratdıqlarına, İlahi!**

**Yolunu azmış dünyanı özün səbirlə nizama sal, Ulu Tanrım!**

**Səbrin kimi qəzəbin də böyükmüş, Allahım!**

***Bəxtiyar SADIQOV***

### Bağışlamaq qəlbin böyüklüyüdür

## Dövlətin vətəndaşlarına göstərdiyi diqqətin daha bir təzahürü

Prezident İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" 2020-ci il 6 aprel tarixli sərəncamına əsasən 176 məhkum cəzasının çəkilməmiş hissəsindən azad edilib. Əfv sərəncamı koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan, yaşı 65-dən yuxarı bir sıra məhkumlara şamil olunub.

Respublikamızda vaxtaşırı olaraq azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı dövlət başçısı tərəfindən əfv sərəncamlarının imzalanması, eləcə də amnistiya aktlarının qəbul olunması mühüm əhəmiyyət kəsb edir. Bu ənənənin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə çoxsaylı əfv sərəncamları imzalanıb, amnistiya aktları qəbul edilib.

Ardı 3-cü səh.

## Separatçı rejimdə növbəti "seçki" şousu

### Paşinyanla keçmiş hərbi xunta arasında qarşıdurma şiddətlənir

Martın 31-də separatçı rejim tərəfindən işğal altında olan Dağlıq Qarabağ bölgəsində qondarma "prezident və parlament seçkiləri" keçirilib. Son "seçkilər" Nikol Paşinyan iqtidarı ilə keçmiş hərbi xunta arasında mübarizənin hələ davam edəcəyini göstərir.

Yekunda tərəflərin namizədlərindən heç biri "seçicilər"in 50 faizinin səsini toplaya bilmədiyi üçün qalib gələ bilməyib. Qondarma qurumun keçmiş "baş nazir"i Araik Arutyunyan 49,25 faiz, sabiq "xarici işlər naziri" Masis Mailyan isə 26,4 faiz səs yığıb və ikinci tura keçib. Növbəti "seçkilər" aprelin 14-də keçiriləcək.

### Baş nazir qondarma quruma öz adamını təyin etmək istəyir

Xatırladaq ki, "prezident seçkisində" 14 namizəd, "parlament seçkisində" isə 12 siyasi partiya iştirak edib. 33 yerlik "parlamentə" 361 namizəd var idi. "Prezidentlik" uğrunda əsas namizədlər Dağlıq Qarabağın "keçmiş baş naziri" Araik Arutyunyan, "parlamentin sədri" Aşot Quluyan, "xarici işlər naziri" Masis Mailyan və "Təhlükəsizlik Şurasının" keçmiş katibi Vitaliy Balasardyan idi.

Ardı 5-ci səh.

▪ *Özünü, doğmalarını və dostlarını qorumaq:*
▪ *Koronavirusa qalib gəlmək üçün*
**EVDƏ QAL!**
*Biz birlikdə güclüyük!*

Milli Məclisin iclasında

# Nazirlər Kabineti ötənilki fəaliyyəti barədə hesabat verdi





*Əvvəli 1-ci səh.*

Ölkə və dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilən bu tədbir, ilk növbədə, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mahiyyətində insana və vətəndaşa qayğının dayandığını göstərməklə yanaşı, sübut edir ki, bu gün siyasi mənsubiyyətindən, əqidəsindən, cəmiyyətdə mövqeyindən, statusundan asılı olmayaraq, hər bir insanın həyatı və sağlamlığı dövlətimiz üçün ən böyük dəyərdir".

Ölkəmizdə koronavirus infeksiyasının yayılmasına qarşı görülən bütün işlərin Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu söyləyən Sahibə Qafarova qeyd edib ki, həyata keçirilən tədbirlərdə əsas məqsəd əhalinin sağlamlığının qorunmasıdır. "Bir neçə gün əvvəl Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Sumqayıtda tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak etdilər. Möhtərəm Prezidentimiz xalqa müraciətində koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən genişmiqyaslı tədbirlər haqqında məlumat verdi.

Dövlət başçısının iki gün əvvəl imzaladığı digər bir sərəncama əsasən, pandemiya şəraitində tibb müəssisələrinə tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə modul tipli 6 xəstəxananın quraşdırılması üçün dövlət büdcəsindən 15 milyon manata yaxın vəsait ayrılıb. Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan dünyada koronavirus pandemiyasına qarşı mübarizənin ön sıralarında dayanıb, bu sahədə beynəlxalq miqyasda göstərilən səylərə sanballı töhfə verir", - deyə Milli Məclisin Sədri vurğulayıb.

Ölkədə iqtisadi fəallığın qorunması üçün görülən işlərdən bəhs edən Sədr Sahibə Qafarova bildirib ki, iqtisadi böhrana yol verməmək üçün lazımi tədbirlər görülür, orta və kiçik sahibkarlara şərait yaradılır, işçilərin ixtisar edilməsinin qarşısı alınır, aztəminatlı insanlara yardım göstərilir. O, həyata keçirilən bütün bu tədbirlərə görə Prezident İlham Əliyevə Milli Məclis adından təşəkkür edib.

Sədr qeyd edib ki, bu gün bəşəriyyətin qarşılaşdığı koronavirus pandemiyasını bir çoxları müharibə ilə müqayisə edir. Amma bu dəfə müharibədə insanlığa meydan oxuyan görünməz düşməndir. Azərbaycanda bu bəlaya qarşı mübarizədə həkimlər və tibb işçiləri, polis və gömrük xidməti əməkdaşları, sərhəd qoşunlarının əsgər və zabitləri, ön cəbhədə olan tibb işçiləri - həkimlər, tibb bacıları, hərbi tibb müəssisələrinin heyəti karantin rejimi şəraitində fədakarlıq göstərirlər. Onlar hər gün öz sağlamlığını təhlükə altına ataraq, bu bəladan qurtulmaq üçün əllərindən gələni edirlər. Biz onlara nə qədər təşəkkür etsək də, azdır.

Sonra Milli Məclisin deputatları pandemiyaya qarşı mübarizədə peşə və vətəndaşlıq borclarını şərəf və vicdanla yerinə yetirən bu fədakar insanları ayaq üstə alqışlayıblar.

Daha sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb.

Əvvəlcə "E.S.Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında" məsələ müzakirəyə çıxarılıb. Müzakirələrdən sonra məsələ səsə qoyularaq təsdiqlənib.

Ona göstərilən etimada görə dövlət başçısına minnətdarlığını ifadə edən Elman Rüstəmov bu vəzifəyə Ulu Öndər Heydər Əliyev tərəfindən gətirilməsindən, son 17 ildə ölkəmizdə aparılan nəhəng quruculuq işlərində iştirak etməsindən şərəf duyduğunu vurğulayıb.

Daha sonra çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova deyib: "Konstitusiya Qanununa uyğun olaraq hər il yaz sessiyasının beşinci iclasında Nazirlər Kabinetinin hesabatı dinlənilir. Ölkədə yaranmış epidemioloji vəziyyət səbəbindən və Nazirlər Kabinetinin təxirəsalınmaz problemlərlə məşğul olması ilə əlaqədar qərara alınıb ki, Baş Nazir və onun müavinləri, nazirlər, komitə sədrləri, digər qurumların rəhbərləri Milli Məclisin iclasında birbaşa iştirak etməsinlər. Amma burada səslənən bütün çıxışlar, fikirlər və suallar Nazirlər Kabinetinə göndəriləcək və onun fəaliyyətində nəzərə alınacaq.

Hörmətli deputatlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası 2019-cu ildə ölkəmizdə makroiqtisadi sabitliyin qorunmasını və möhkəmlənməsini təmin edib. Bu il yanvarın 13-də ötən ilin yekunlarına həsr edilmiş müşavirədə dövlət başçısının dediyi kimi, "...bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşıya qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu. Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir".

Ötən il dövlətin iqtisadi siyasətinin prioritetlərini iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft ixracının stimullaşdırılması, aqrar sahəyə dövlət dəstəyinin artırılması təşkil edilib. İdarəetmə və struktur islahatları, habelə vergi və gömrük sistemində islahatlar dərinləşdirilib, dövlət vəsaitlərindən istifadə sahəsində şəffaflıq, səmərəlilik və maliyyə intizamı gücləndirilib. Ölkənin strateji valyuta ehtiyatları artaraq 2019-cu ilin sonunda 51 milyard dollara çatıb.

Möhkəm iqtisadi və maliyyə bazasının yaradılması 4 milyon 200 min nəfəri əhatə edən 2,3 milyard manatlıq geniş sosial paketin həyata keçirilməsinə imkan verib. Minimum əməkhaqqının, sosial müavinətlərin, minimum pensiyanın, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların əməkhaqqının, məcburi köçkünlər üçün vahid aylıq müavinətin məbləğinin, digər sosial ödənişlərin artması əhalinin sosial müdafiəsinin güclənməsinə, kölgə iqtisadiyyatının və qeyri-rəsmi məşğulluğun azalmasına təsir göstərib. Bu da vacibdir ki, əhalinin gəlirlərinin artım dinamikası inflyasiyanı bir neçə dəfə üstələyib.

Yaşadığımız günlərdə koronavirus pandemiyasının əhatə dairəsinin və coğrafiyasının genişlənməsi qlobal iqtisadiyyata, beynəlxalq maliyyə və əmtəə bazarlarına, o cümlədən neftin qiymətinə mənfi təsir göstərib. Bu gün möhtərəm Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı kompleks tədbirlər həyata keçirilir. Hökumətin bu günlərdə təsdiq etdiyi iqtisadi artıma və sahibkarlığa dəstək proqramının həcmi 2,5 milyard manat və ya ümumi daxili məhsulun 3 faizini təşkil edir. Hesab edirəm ki, bu cür irimiqyaslı proqramın hazırlanması və icrasına başlanılması məhz əvvəlki illərdə, xüsusən 2019-cu ildə həyata keçirilmiş uğurlu sosial-iqtisadi siyasətin hesabına mümkün olub.

Nazirlər Kabinetinin illik hesabatlarının parlamentdə dinlənilməsi sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakına şərait yaradır. Hesab edirəm ki, bu gün keçirəcəyimiz müzakirələr də faydalı olacaq, Hökumətin fəaliyyətinin səmərəliyinin daha da artmasına öz töhfəsini verəcək".

Daha sonra Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyətinə dair hesabatı barədə çıxışının videoyazısı təqdim olunub.

## E.S.Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Elman Sirac oğlu Rüstəmov Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilsin.

***S.QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 9 aprel 2020-ci il*

## Baş Nazir Əli Əsədovun çıxışı

- Hörmətli sədr.

Hörmətli deputatlar.

Bu gün Nazirlər Kabineti 2019-cu ildəki fəaliyyəti haqqında Milli Məclis qarşısında hesabatla çıxış edir. Məruzəyə keçməzdən əvvəl VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətə başlaması münasibətilə deputat mandatı qazanmış bütün millət vəkillərini, parlamentin yeni seçilmiş rəhbərliyini ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeniləşmə istiqamətində atdığı addımların fonunda Nazirlər Kabineti öz fəaliyyətini daim təkmilləşdirməyə, dövlət idarəçiliyinin modernləşdirilməsini nəzərdə tutan siyasi qərarların ardıcıl və səmərəli icrasına çalışır.

İndiyədək Nazirlər Kabineti ilə Milli Məclisin birgə uzlaşdırılmış fəaliyyəti bütün sahələrdə vahid dövlət siyasətinin həyata keçirilməsini təmin etmişdir. Bu, islahatların uğurla reallaşdırılmasının və milli iqtisadiyyatın davamlı inkişafının ən vacib şərtlərindən biridir. Əminəm ki, bizim birgə fəaliyyətimiz bundan sonra da sistemli və ardıcıl şəkildə davam etdiriləcəkdir.

Dövlət başçısı tərəfindən həyata keçirilən struktur və kadr dəyişiklikləri digər qurumlar kimi, Nazirlər Kabinetinin fəaliyyətinə də yeni impuls verməkdədir. Biz ölkənin ali rəhbərliyinin Nazirlər Kabinetinə dəstəyini və etimadını yüksək dəyərləndirir və yaradılan bu imkandan daha səmərəli istifadə olunmasını əsas vəzifəmiz hesab edirik. Çünki bu dəstək və etimad həm də böyük məsuliyyət deməkdir.

Hörmətli deputatlar, 2019-cu il müasir Azərbaycanın tarixinə köklü islahatlar ili kimi daxil olmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi, iqtisadi və sosial islahatlar dönməz xarakter almaqla, cəmiyyətin bütün fəaliyyət sahələrini əhatə etmiş, ölkəni yeni inkişaf mərhələsinə çıxarmışdır.

Əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində görülən tədbirlərin nəticəsi olaraq, Dünya Bankı tərəfindən 2020-ci il üçün dərc olunan "Doing Business" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer almışdır.

Əvvəlki illər kimi, hesabat dövrü də Azərbaycan iqtisadiyyatı üçün uğurlu olmuşdur. Əldə olunan müsbət nəticələri, ilk növbədə, ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, sosial-iqtisadi inkişafla bağlı strateji hədəflərin dəqiq müəyyən edilməsi şərtləndirmişdir.

Son illər iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda daha yüksək artımın təmin edilməsi, ixrac imkanlarının genişləndirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində əsaslı tədbirlər həyata keçirilmişdir.

Qlobal iqtisadiyyatda qeyri-müəyyənliyin gücləndiyi bir şəraitdə islahat proqramları çərçivəsində həyata keçirilən kompleks tədbirlər nəticəsində 2019-cu ildə makroiqtisadi sabitlik və dayanıqlı iqtisadi artım təmin edilmişdir. Belə ki, 2018-ci illə müqayisədə ümumi daxili məhsul real ifadədə 2,2 faiz, sənaye məhsulu istehsalı isə 1,8 faiz artmışdır.

Hesabat ilində əlavə dəyər istehsalı qeyri-neft sektoru üzrə 3,5 faiz, qeyri-neft sənayesi üzrə 14,9 faiz çox olmuşdur.

Xüsusi olaraq qeyd etmək istərdim ki, makroiqtisadi sabitliyin təmin edilməsi və əhalinin həyat səviyyəsinin qorunması məqsədilə hökumət inflyasiyanın minimal səviyyədə saxlanılmasına böyük əhəmiyyət verir. Həyata keçirilən tədbirlər nəticəsində inflyasiyanın səviyyəsi 2019-cu ildə 2,6 faiz təşkil etmişdir.

Hesabat ilində ölkədə işsizliyin səviyyəsi ən aşağı həddə olmaqla 4,8 faiz təşkil etmişdir. Perspektiv dövrdə məşğulluq siyasətinin daha da gücləndirilməsi iqtisadi və sosial siyasətin ən mühüm vəzifəsi kimi diqqət mərkəzində saxlanılacaqdır.

2019-cu ildə əvvəlki ilə nisbətən əhalinin nominal gəlirləri 7,4 faiz artmışdır. Orta aylıq nominal əməkhaqqı isə 16,6 faiz artaraq 635 manat təşkil etmişdir. İnflyasiyanı nominal gəlirlərin artımı 4,8 faiz bəndi, orta aylıq əməkhaqqı isə 14 faiz bəndi üstələmişdir.

Dövlət büdcəsinin gəlirləri 24,2 milyard manat və ya 104,5 faiz, xərcləri isə 24,4 milyard manat və ya 97,0 faiz səviyyəsində icra olunmuşdur.

Ötən dövrdə dövlət büdcəsinin şəffaflığının və ünvanlılığının təmin edilməsi, vergi və gömrük inzibatçılığının təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Nəticədə vergi və gömrük borcları üzrə yığım səviyyəsi yüksəlmiş, qeydiyyatdan keçmiş ödəyicilərin sayı əhəmiyyətli dərəcədə artmışdır.

Strateji valyuta ehtiyatları hesabat ilinin əvvəlindən 14,2 faiz artaraq 51 milyard dollara çatmış və ümumi daxili məhsulun həcmini üstələmişdir. 2019-cu ildə ilk dəfə olaraq Dövlət Neft Fondunun aktivləri 40 milyard dolları ötmüşdür.

Hesabat ilinin sonuna xarici dövlət borcunun məbləği 9 milyard 91 milyon ABŞ dolları təşkil etmişdir. İmzalanmış sazişlər üzrə istifadə edilmiş kreditlərə görə xarici dövlət borcu 2019-cu ildə ümumi daxili məhsulun 18,9 faizini təşkil etmişdir.

Əvvəlki illə müqayisədə 2019-cu ildə əsas kapitala yönəldilmiş investisiyaların həcmi qeyri-neft sektoru üzrə 1,9 faiz, qeyri-neft sənayesi üzrə 23 faiz artmışdır. Bu investisiyaların 70 faizi daxili, 30 faizi xarici mənbələr hesabına formalaşmışdır.

Dövlət investisiya proqramında nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilmiş infrastruktur və sosial təyinatlı layihələr regionların inkişafına, əhalinin iqtisadi və sosial ehtiyaclarının ödənməsinə mühüm töhfə vermişdir.

Hesabat ilində xarici ticarət dövriyyəsi 33,1 milyard ABŞ dolları, o cümlədən ixrac 19,5 milyard dollar, idxal isə 13,7 milyard dollar təşkil etmiş, nəticədə 5,8 milyard dollarlıq müsbət saldo yaranmışdır. Bu dövrdə qeyri-neft ixracı 14,4 faiz artmışdır.

Hörmətli deputatlar, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu sənayeləşmə siyasəti həyata keçirilmiş, çoxsaylı müasir istehsal sahələri yaradılmışdır. Ümumilikdə, son 16 il ərzində qeyri-neft sənayesində istehsalın həcmi 2,5 dəfə artmışdır. 2019-cu ildə isə 1,8 faiz çox sənaye məhsulu istehsal olunmuşdur.

Ötən il ölkə sənayesi üçün əlamətdar hadisə kimi Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş "SOCAR Karbamid" zavodunun və "SOCAR Polimer" zavodunun istifadəyə verilməsini qeyd etmək olar.

Ölkəmiz kosmik sənayenin inkişafında da mühüm nailiyyətlər əldə etməkdədir. Kosmik sənaye üzrə ən əlamətdar hadisə Bakı şəhərinin 2023-cü ildə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququnu qazanmasıdır. Artıq orbitə buraxılmış üç peyk həm də ölkəmizin ixrac potensialının artırılmasına xidmət edir.

Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı dövlət büdcəsindən 639 milyon manat məbləğində pul vəsaiti vaxtı keçmiş kredit borclarının ödənilməsinə yönəldilmişdir.

2019-cu ildə əhalinin, xüsusən də aztəminatlı təbəqənin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə geniş sosial paket reallaşdırılmışdır. Belə ki, sosial müavinət və təqaüdlər orta hesabla 92 faiz, minimum pensiyanın məbləği 72 faiz, minimum əməkhaqqı 92 faiz artırılmışdır.

Bununla yanaşı, dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarda çalışanların əməkhaqlarının orta hesabla 50 faiz artırılması təmin edilmişdir. Qeyd olunan artımların maliyyə tutumu 2,3 milyard manata bərabər olmaqla 4,2 milyon nəfəri əhatə etmişdir.

2019-cu ildə sosial siyasətin ən mühüm hadisələrindən biri də icbari tibbi sığortaya keçid üçün hazırlıq işlərinin tamamlanması olmuşdur. Bunu, Azərbaycanın səhiyyə sahəsində tarixi bir islahat kimi dəyərləndirmək olar. İcbari tibbi sığorta sisteminə keçidin əsas məqsədi əhaliyə etibarlı, keyfiyyətli tibbi xidmətlərin göstərilməsini təşkil etmək, sərf olunan xərclərin daha ədalətli və səmərəli bölgüsünü təmin etməkdir.

Məcburi köçkün vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması və onların üzləşdikləri problemlərin aradan qaldırılması məqsədilə son 16 il ərzində dövlət tərəfindən genişmiqyaslı işlər görülmüş, müasir yaşayış kompleksləri, qəsəbələr salınmışdır.

Şəhid ailələrinə 11 min manatlıq birdəfəlik ödənişin verilməsi sosial təminat sahəsində cənab Prezidentin irəli sürdüyü önəmli təşəbbüslərdən biri kimi qeyd edilməlidir. Bu vəsait 12 min şəhidimizin 18 min vərəsəsinə tam şəkildə ödənilmişdir.

Məlum olduğu kimi, ötən ilin əvvəlində Şamaxı, Ağsu və İsmayıllı rayonlarında dağıdıcı zəlzələ baş vermişdir. İnsan itkisi olmasa da, xeyli sayda ev dağıntıya məruz qalmışdır. Dövlət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində zəlzələnin fəsadları qısa bir müddətdə aradan qaldırılmış, yüzlərlə yeni ev tikilmiş və ya təmir olunaraq bərpa edilmişdir.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər ötən il uğurla icra olunmuşdur.

Hesabat ilində ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər davam etdirilmişdir. Görülmüş tədbirlər nəticəsində 2018-ci illə müqayisədə kənd təsərrüfatı istehsalı 7,2 faiz artmışdır.

2019-cu ildə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların istifadəyə verilməsi, nasos stansiyalarının, magistral su kanallarının və digər obyektlərin tikintisi davam etdirilmişdir.

Nəqliyyat infrastrukturunu inkişaf etdirməklə ölkəmizin tranzit potensialının reallaşdırılması iqtisadiyyatın şaxələndirilməsinin ən vacib şərtlərindən biridir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, açıq dənizə çıxışı olmayan Azərbaycan bu gün nəqliyyat mərkəzinə çevrilməkdədir. Son 16 il ərzində nəqliyyat sektorunda mühüm layihələr həyata keçirilmiş, bu sahəyə irihəcmli investisiyalar yönəldilmişdir.

2019-cu il həm də TANAP qaz kəmərinin istismara verilməsi ilə əlamətdar olmuşdur. "Cənub qaz dəhlizi"nin əsas hissəsi olan TANAP layihəsinin reallaşdırılması ölkəmizin iqtisadi tarixində mühüm nailiyyətlərdən biri kimi qeyd edilməlidir. Bu dəhlizin sonuncu layihəsi olan TAP layihəsi icra olunmaqdadır.

2019-cu ildə informasiya və rabitə sektorunda göstərilən xidmətlərin həcmi əhəmiyyətli dərəcədə artmışdır. Bu xidmətlərin əksəriyyəti əhali tərəfindən istehlak edilmişdir və əldə olunmuş gəlirin 83 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. 2019-cu ilin mart ayında Avropa ilə Asiya arasında tarixi İpək yolunun üzərində yeni Rəqəmsal İpək yolunu formalaşdıracaq 400 kilometr uzunluğu olan Transxəzər fiber-optik kabel xəttinin çəkilməsi ilə bağlı Azərbaycan və Qazaxıstan arasında saziş imzalanmışdır. Noyabr ayında isə Aktau şəhərində həmin kabel xəttinin inşasına başlanılması ilə əlaqədar təməlqoyma mərasimi keçirilmişdir.

Ötən il milli iqtisadiyyatın inkişafı və dövlətin maliyyə imkanlarının genişlənməsi fonunda hərbi potensialımız və ölkəmizin müdafiə qabiliyyəti də güclənmişdir. Bu, Azərbaycan Prezidenti və hökuməti üçün daim ən prioritet sahə olaraq qalır.

Hörmətli deputatlar, ötən ilin hesabat məruzəsi ilə çıxış etdiyimiz bir vaxtda bu gün üzləşdiyimiz ciddi problemlərdən, xüsusilə də koronavirus pandemiyasının doğurduğu risklərdən, dünya neft bazarında dalğalanmaların milli iqtisadiyyatımıza mənfi təsirlərindən danışmaya bilmərik.

Bildiyiniz kimi, koronavirus epidemiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi üçün cənab Prezidentin 2020-ci il 27 fevral tarixli sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır.

Nazirlər Kabineti "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Tədbirlər Planı"nı təsdiq etmişdir. Nəzərdə tutulan silsilə tədbirlər hazırda ardıcıl qaydada həyata keçirilməkdədir.

Azərbaycanda sanitar-epidemioloji vəziyyət ciddi nəzarətdədir. Epidemiyadan qorunmaq üçün ölkəmizdə kifayət qədər tibbi ləvazimatlar vardır. Eyni zamanda onların yerli istehsalının təşkili istiqamətində də konkret işlər görülüb.

Nazirlər Kabineti yanında Operativ Qərargah Azərbaycan Respublikasının "Sanitariya-epidemioloji salamatlıq haqqında" qanununun 25-ci maddəsinə uyğun olaraq 2020-ci il martın 14-dən etibarən ölkə ərazisində tətbiq olunan bəzi sosial izolyasiya tədbirlərini elan etmişdir. Martın 24-dən aprelin 20-dək Azərbaycanda xüsusi karantin rejimi elan olunmuşdur.

Bundan başqa, martın 29-dan xüsusi karantin rejiminin gücləndirilməsi və 2 aprel tarixli qərara əsasən, aprelin 5-dən 20-dək hərəkət məhdudiyyətləri müəyyən olunmuşdur. Bu tədbirlərin tətbiqi qaçılmazdır.

Hörmətli deputatlar, hökumət dünya iqtisadiyyatında gedən prosesləri gündəlik olaraq izləyir və qabaqlayıcı rejimdə tədbirlər həyata keçirir. Koronavirus pandemiyası, aşağı neft qiymətləri və sosial təcriddən irəli gələn aşağı tələbin digər ölkələrdə olduğu kimi, milli iqtisadiyyatımız üçün təsirlər yaradacağı istisna edilmir. Lakin hökumət ölkə iqtisadiyyatına mənfi təsirlərin aradan qaldırılması üçün müvafiq alətlərə malikdir və bu alətlərdən çevik istifadə olunacaqdır.

Cənab Prezidentin 2020-ci il 19 mart tarixli sərəncamı ilə koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 1 milyard manat ayrılıb, həmçinin İqtisadiyyat, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirləri və Mərkəzi Bank sədrinin rəhbərliyi ilə dörd işçi qrup yaradılıb, vahid Tədbirlər Planı hazırlanıb və təsdiq olunub. Vahid Tədbirlər Planı hökumət tərəfindən vaxtında və tam həcmdə icra olunacaqdır.

Azərbaycan dövləti tərəfindən görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Karantin rejiminin tətbiq olunması, məhdudlaşdırıcı tədbirlərin görülməsi, bu istiqamətdə qəbul edilmiş qərarlar bir məqsədi güdür - biz bu ağır sınaqdan az itkilərlə çıxmalıyıq və vətəndaşlarımızı qorumalıyıq.

Hörmətli deputatlar, parlament tərəfindən qəbul olunan qanunlar sosial-iqtisadi və institusional inkişafın hüquqi bazasını təmin edir. Təsadüfi deyildir ki, martın 10-da VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində cənab Prezident İlham Əliyev ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara Milli Məclisin də töhfə və təkan verməli olduğunu bildirmişdir. Heç şübhəsiz, qanunvericilik bazası müasir çağırışları nəzərə almaqla təkmilləşdirilməli, yeni prioritetlər və hədəflərlə uzlaşdırılmalı, parlamentin iqtisadi sahədə görülən işlərlə bağlı rolu daha da artmalıdır.

Dövlət başçısının tövsiyələrini nəzərə almaqla biz parlamentlə Nazirlər Kabinetinin daha səmərəli və konstruktiv əməkdaşlığı, birgə fəaliyyəti üçün zəruri olan bütün tədbirləri görmək əzmindəyik.

Diqqətinizə görə sağ olun.

* * *

Daha sonra deputatlar hökumətin hesabatına münasibət bildiriblər. Çıxış edən deputatlar qeyd ediblər ki, hesabatda və Baş Nazirin bununla bağlı çıxışında hökumətin fəaliyyəti hərtərəfli və əhatəli təqdim olunub. Çıxışlarda hökumətin ötən il ərzindəki fəaliyyəti yüksək qiymətləndirilib. Bildirilib ki, illik hesabatda ölkə həyatının bütün sahələri əhatə edilib, bütün əsas göstəricilər əksini tapıb.

Qeyd olunub ki, ötən il ölkəmizin həyatında böyük uğurlarla yadda qalıb. Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi sayəsində ölkəmizin əldə etdiyi nailiyyətlər, Azərbaycan xalqının dövlət başçısının ətrafında sıx birləşməsi, ölkədə yaradılmış siyasi sabitlik respublikamızın beynəlxalq aləmdə də mövqeyinin möhkəmlənməsinə zəmin yaradıb.

Deputatlar əvvəlki illərdə olduğu kimi, 2019-cu ilin də sosialyönümlü olması ilə yadda qaldığını, görülən işlər nəticəsində Azərbaycanın sosial-iqtisadi inkişafında əhəmiyyətli nəticələrin əldə olunduğunu, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımların atıldığını söyləyiblər. Qeyd edilib ki, qeyri-neft sektorunun inkişafı Azərbaycanın bölgədə güclü potensiala malik dövlət olduğunu bir daha təsdiqləyib.

Müzakirələrdən sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyətinə dair illik hesabatı səsə qoyularaq məqbul hesab edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, müzakirələrin videoyazısı, stenoqramı Nazirlər Kabinetinə göndəriləcək.

Sonra gündəlikdə olan digər məsələlərə baxılıb.

Deputatlar "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" qanunlarda, Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə qanun layihələrini ikinci oxunuşda təsdiq ediblər.

İclasda həmçinin "Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda qəbul olunub.

# Ermənistanın beynəlxalq aləmdə növbəti fiaskosu



"Bu gün bütün dünyada koronavirus (COVID-19) infeksiyası tüğyan edir və fövqəldövlətlər bu xəstəliyin yayılmasının qarşısının alınması istiqamətində zəruri tədbirlər görmələrinə baxmayaraq, hələ də acizdirlər. Təəssüflər olsun ki, xəstəliyin yaratdığı fəsadlar ciddidir və nəticələrin aradan qaldırılması istiqamətində bütün dünya səfərbər olub. Azərbaycan Prezidentinin apardığı uğurlu siyasət nəticəsində xəstəliyin ölkəmizdə geniş yayılmasının qarşısı alınıb, habelə məsuliyyətli vətəndaşların müvafiq qurumların göstərişlərinə tabe olmasına görə xəstəliyə yoluxma halları digər ölkələrlə müqayisədə cüzidir.

Bu gün dünyada xəstəliyin yayılma vəziyyəti o qədər ciddidir ki, dünyada inanılması çətin olan proseslər gedir. Məsələn, aralarında uzun müddətdir "soyuq müharibə" davam edən Rusiya Federasiyası Amerika Birləşmiş Ştatlarına humanitar yardım göstərir, əvəzində ABŞ neftin qiymətinin balanslaşdırılması və hasilatın normallaşdırılması məqsədilə Səudiyyə Ərəbistanına müraciət edir. Eyni zamanda ayrı-ayrı ölkələrə göndərilən humanitar yardım sərhəd ölkələr tərəfindən ələ keçirilir, əvəzi ödənilmədən icazəsiz olaraq müsadirə edilir.

Bu xoşagəlməz hadisələrin fonunda daha mənfur bir addım yenə də Ermənistan hakimiyyəti tərəfindən atılır. Ermənistan hakimiyyəti ölkəsində geniş yayılmış pandemiyanı gizlətmək, habelə yarıtmaz vəziyyətdə olan səhiyyə sistemini diqqətdən yayındırmaq məqsədilə martın 31-də Dağlıq Qarabağda qondarma rejimin "seçki" keçirdiyini açıqladı".

Bu fikirləri AZƏRTAC-a Milli Məclis Sədrinin müavini Adil Əliyev söyləyib.

Adil Əliyev deyib ki, koronavirus infeksiyasının yayılması ilə əlaqədar "Avro-2020", "Eurovision", "Formula 1" kimi bütün dünyanın diqqət mərkəzində olan idman və mədəni yarışların dayandırıldığı bir vaxtda, dünya ölkələri "gözəgörünməz" düşmənə qarşı mübarizə apararkən bizim düşmənimiz həmişəki kimi yaranmış vəziyyətdən sui-istifadə etdi. Qondarma rejim tərəfindən keçirilməsinə cəhd göstərilən "parlament və prezident seçkiləri" Ermənistan hökuməti istisna olmaqla heç bir ölkə tərəfindən tanınmadı. Bir çox nüfuzlu beynəlxalq təşkilat və ölkə tərəfindən tanınmamaqla yanaşı, "seçkilər" adı verilən bu hadisənin beynəlxalq hüquqa, insan haqlarına, dövlətlərin ərazi bütövlüyü prinsipinə kəskin şəkildə zidd olduğu bir daha ifadə edildi.

Ermənilərin zəbt olunmuş ərazilərdə analoji "seçki şouları" təşkil etməsi birinci dəfə deyil, hər dəfə Ermənistan hakimiyyəti çətinliyə düşəndə qondarma rejimdə özlərinə arxa tapmağa cəhd edir.

"Seçkilər"in keçirilməsi ərəfəsində "Nyu York Times" qəzeti kimi dünyanın ən qabaqcıl mətbuat orqanı Ermənistan hökuməti tərəfindən işğal edilmiş Azərbaycan ərazisində "seçkilər"in keçirilməsi barədə məlumat yaydı və Dağlıq Qarabağda yaradılmış qondarma rejimin bu günə qədər heç bir ölkə tərəfindən tanınmamasını oxucuların diqqətinə çatdırdı.

Vəziyyətin bu yerində, həmçinin İndoneziyadan Ermənistan rejiminə müraciət edildi ki, Azərbaycan Respublikasının ərazisi olan Dağlıq Qarabağda beynəlxalq hüququn ən ali prinsiplərini pozmaqla işğal edilmiş ərazidə "prezident və parlament seçkiləri"nin keçirilməsini dayandırın. Belə ki, İndoneziyanın ən nüfuzlu mətbuat orqanı olan "Jakarta Post" tanınmayan qurumda qondarma rejimin yaratdığı saxta seçkinin keçirilməsinin tam qanunsuz olduğunu bildirib.

İşğal edilmiş ərazilərdə keçirilən son qanunsuz "seçkilər"ə Türkiyənin Xarici İşlər Nazirliyi tərəfindən verilən sərt açıqlamada "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məqsədilə ATƏT-in Minsk qrupunun fəaliyyəti çərçivəsindəki görüşlərin keçirildiyi bir dövrdə işğal altındakı torpaqlarda saxta "seçkilər" təşkil edilməsinin sülh yolu ilə uzunmüddətli həllə yönəldilən cəhdlərə zərbə vuran bir təhrik olduğu vurğulanır.

"Seçkilər" adı altında keçirilən kütləvi tədbirlərlə əlaqəli bəyanatlardan biri də Avropa İttifaqı (Aİ) tərəfindən verilib. Avropa İttifaqı bir daha xatırladıb ki, bu "seçki"nin baş tutduğu hüquqi baza və konstitusiya tanınmır, Dağlıq Qarabağın gələcək statusunun müəyyənləşdirilməsinə və ya davam edən danışıqlar prosesinin nəticəsinə xələl gətirə bilməz.

NATO-nun Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər"in NATO tərəfindən tanınmaması barədə yaydığı analoji məlumatda həmin hadisənin işğal edilmiş ərazilərin statusuna heç bir təsirinin olmamasını qeyd edib.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) da Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilən qondarma "seçkilər"i tanımadığını və Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində seçkilərin keçirilməsini BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müvafiq qətnamələrinə zidd hesab etdiyini bildirib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda qondarma "prezident və parlament seçkiləri"ni pisləyib.

Qoşulmama Hərəkatının üzv ölkələri də martın 31-də Azərbaycanın Dağlıq Qarabağ bölgəsində keçirilmiş qondarma "seçkilər"i tanımadıqlarını və qanunsuz hesab etdiklərini bildirib, bununla əlaqədar 120 ölkə tərəfindən birlikdə qətnamə qəbul ediblər.

GUAM ölkələri, Norveç, Böyük Britaniya, Rumıniya və bu gün xəstəliyin ən çox fəsad verdiyi bir ölkə olan İtaliya belə Azərbaycanın işğal edilmiş ərazilərində keçirilmiş qondarma "seçkilər"in tanınmaması barədə qəbul edilmiş bəyanatlarda Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində martın 31-də keçirilmiş qondarma "prezident və parlament seçkiləri"nin qanunsuz olmasını bir daha təsdiq ediblər.

Hətta vəziyyət o yerdədir ki, Almaniya Xarici İşlər Nazirliyinin rəsmisi Maykl Seibert açıqlamasında seçkilərin Almaniya hökuməti tərəfindən birmənali olaraq tanınmamasını, atılan addımların yalnız münasibətlərin qəlizləşdirilməsinə yönəlməsini bildirib və Ermənistan hökumətini seçkilərin keçirilməsindən imtina etməyə çağırıb.

Aydındır ki, Nikol Paşinyan hazırda özünə müttəfiq tapmaq və ölkəsində itirilmiş nüfuzunu bərpa etmək üçün yenidən "seçki şousu"nu gündəmə gətirir, lakin özü də başa düşmədən Ermənistanın terrorçu dövlət olduğunu beynəlxalq müstəvidə bir daha təsdiq edir. Anlayır ki, aprelin 14-nə təxirə salınmış seçkilərin ləğv edilməsindən və Azərbaycanın əzəli və əbədi torpaqlarının azad edilməsindən başqa yolu yoxdur.

Bu "seçkilər"lə bağlı verilən bütün bəyanatlardan görünür ki, Ermənistan hakimiyyəti tərəfindən hazırlanmış bu oyunda məqsəd təxribat, Qafqazda sülh və sabitliyə yönəldilən məsuliyyətsiz siyasi addım, münaqişənin sülh yolu ilə nizamlanmasına qarşı ciddi əngəl, beynəlxalq hüquq normalarına təhdidi davam etdirmək, destruktiv mövqedən əl çəkməməkdir.

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclası keçirilib

Koronavirusla (COVID-19) mübarizə tədbirləri çərçivəsində parlamentin komitə iclasları onlayn qaydada keçirilir.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclasları da eyni qaydada təşkil olunur. Komitənin martın 26-da və 29-da, həmçinin aprelin 1-də və 8-də keçirilmiş iclaslarının gündəliyini müzakirəyə komitənin sədri Ziyafət Əsgərov təqdim edib.

İclaslarda "Sərhəd mühafizə orqanları haqqında", "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi, "Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırışı müddətinin uzadılması haqqında" qanun layihəsi, "Hərbi qulluqçuların statusu haqqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" qanunlarda, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətçəkmə haqqında" Əsasnamədə, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə" qanun layihəsi və "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" qanun layihəsi müzakirə olunub. Deputatlar bu məsələlərlə bağlı fikir mübadiləsi aparıb, rəy və təkliflərini veriblər.

Müzakirəyə çıxarılan qanun layihələri baxılmaq üçün Milli Məclisin müzakirəsinə tövsiyə olunub.

## Bağışlamaq qəlbin böyüklüyüdür

# Dövlətin vətəndaşlarına göstərdiyi diqqətin daha bir təzahürü

*Əvvəli 1-ci səh.*

Bu siyasət Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ötən müddət ərzində dövlət başçısının imzaladığı əfv sərəncamları və fərmanlarının icrası nəticəsində minlərlə məhkum azadlığa qovuşub və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılıb. Həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Amnistiya Aktı həyata keçirilib, 10 mindən artıq insana şamil olunub.

Ölkəmizdə mütəmadi olaraq imzalanan əfv sərəncamları, qəbul olunan amnistiya aktları dövlətin öz vətəndaşlarına göstərdiyi diqqətin və qayğının təzahürüdür.

Qeyd edək ki, növbəti sərəncama əsasən, cəzanın çəkilməmiş hissəsindən azad edilənlərin 165-i kişi, 11-i qadındır. Əfv məsələsinə baxılarkən məhkumların və onların ailə üzvlərinin müraciətləri, səhhəti, törətdikləri cinayətlər, cəza çəkdikləri müddətdə davranışları və digər məsələlər nəzərə alınıb.

Hazırda dünyanın əksər ölkələrində, eləcə də Azərbaycanda baş verən hadisələr bir sıra təxirəsalınmaz işlərin həyata keçirilməsini qarşıya qoyub. Aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edən ölkə Prezidenti İlham Əliyev Azərbaycan xalqına müraciətində vurğulayıb: "...bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır. Buna nail olmaq üçün istənilən addımların atılması mümkündür və biz bunu edirik".

Dünyanı bürüyən koronavirus bəlası can almaqda davam edir. Təəssüf ki, bu xəstəliyə yoluxanların və qurbanlarının sayı hər gün artmaqdadır. Daha dəhşətli rəqəmlərlə üzləşməmək, koronavirusun yayılması təhlükəsini azaltmaq üçün ölkəmizdə də bütün vacib məsələlər düşünülür və yerinə yetirilir. Azərbaycan dövləti öz vətəndaşlarının həyatını, sağlamlığını qorumaq naminə tədbirlər planını genişləndirir və bunlar uğurla həyata keçirilir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Maliyyə dəstəyinin göstərilməsi ilə bağlı müraciət qaydalarının və vəsaitlərin köçürülməsi mexanizmlərinin şərhi

Koronavirus (COVID-19) pandemiyasının sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabinetinin qəbul etdiyi Tədbirlər Planına uyğun olaraq, İqtisadiyyat Nazirliyi koronavirus pandemiyasından zərər çəkmiş sahibkarlara və onların muzdlu işçilərinə maliyyə dəstəyi proqramına start verib.

AZƏRTAC xəbər verir ki, Vergilər Nazirliyinin İqtisadi Təhlil və Uçota Nəzarət Baş İdarəsinin rəisi Natiq Şirinov maliyyə dəstəyinin göstərilməsi ilə bağlı müraciət qaydalarını və vəsaitlərin köçürülməsi mexanizmlərini şərh edib.

Natiq Şirinov bildirib ki, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyəti məhdudlaşmış sahibkarlıq subyektlərinə maliyyə dəstəyi verilməsi məqsədilə dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlər çərçivəsində həmin sahibkarlara vergi güzəştlərinin və tətillərinin verilməsi, onların sosial sığorta haqları üzrə yüklərinin azaldılması, sahibkarların muzdlu işçilərinə ödədikləri əməkhaqqının bir hissəsinin dövlətin ayırdığı vəsait hesabına ödənilməsi, fərdi (mikro) sahibkarlara isə birbaşa maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulub.

Sahibkarlıq subyektlərinin müraciət etmələrinin asanlaşdırılması ilə bağlı proqram təminatı hazırlanıb və aprelin 8-dən etibarən istifadəyə verilib. Aprelin 9-dan başlayaraq 10 min 853 muzdlu işçisi olan 1000-dən yuxarı vergi ödəyicisi olan hüquqi şəxs və 600-dən çox fərdi sahibkar maliyyə dəstəyi proqramından yararlanmaq üçün müraciət edib.

Baş İdarə rəisi müraciətlərin göndərilməsi qaydası və mexanizmləri barədə də məlumat verib. Bildirilib ki, İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) pandemiyadan zərər çəkmiş sahələr üzrə maliyyə dəstəyinin göstərilməsi ilə bağlı xüsusi bölmə yaradılıb. Vergiödəyiciləri İnternet Vergi İdarəsində mövcud olan şəxsi kabinetləri vasitəsilə həmin bölməyə daxil olaraq əmək ödənişləri üzrə alt bölməni seçməklə sahibkarlıq subyektlərinin muzdlu işçilərinə dəstəyin göstərilməsi ilə bağlı müraciət edə bilərlər. Müraciət edilərkən vergiödəyicisinə dair reyestr və uçot məlumatları proqram tərəfindən avtomatik olaraq doldurulur. Bu, vergiödəyicisinin qeydiyyatda olduğu vergi orqanı, onun VÖEN-i, aktiv bank hesabları barədə məlumatlar, 1 mart tarixinə və müraciət tarixinə işçi sayı barədə məlumatlardır. Sahibkar tərəfindən isə pandemiyadan zərər çəkdiyi sahə və həmin sahədə fəaliyyət göstərən işçilərin sayı barədə məlumatlar sistemə daxil edilir, həmçinin vəsaitlərin hansı banka ödənilməsi ilə bağlı qeyd aparılır.

Bu qeydlər aparıldıqdan və müvafiq düymə sıxıldıqdan sonra avtomatik rejimdə daxil edilmiş məlumatların yoxlanılması həyata keçirilir. Bu yoxlamalar zamanı sistem tərəfindən bir sıra uyğunsuzluqlar aşkarlana bilər. Məsələn, müraciət edən sahibkarın riskli vergiödəyiciləri ilə əməliyyatlar apardığı ortaya çıxa bilər. Martın 1-i tarixinə göstərilən işçi sayı ilə müraciət tarixinə olan işçi sayı ilə müqayisədə kəskin azalmalar, bank hesabının aktiv olmadığı müəyyən edilə bilər. Bu halda sistem tərəfindən həmin sahibkara müvafiq mesajlar verilir. Uçot məlumatlarında olan uyğunsuzluqların aradan qaldırılması ilə bağlı sahibkar müvafiq düzəlişləri edib yenidən müraciət edə bilər.

Elektron müraciətlər bütün yoxlama mərhələlərini keçdikdən sonra, hazırlanmış reyestr məlumatları gün ərzində Maliyyə Nazirliyinə göndərilir. Maliyyə Nazirliyində açılmış tranzit hesab vasitəsilə sahibkarın müraciətində göstərdiyi bank hesabına vəsaitlərin ödənilməsi təmin olunacaqdır.

N.Şirinov ödəniləcək vəsaitlərin məbləği ilə bağlı məsələlərə də aydınlıq gətirib. Onun sözlərinə görə, muzdlu işçilərə vəsaitlərin ödənilməsi prosesində Dövlət Statistika Komitəsi tərəfindən yanvar ayının sonuna ölkə üzrə orta aylıq əməkhaqqının məbləği - 712 manat əsas meyar olaraq götürülüb. Əgər muzdlu işçilərin aylıq əməkhaqqı 712 manatdan azdırsa, onlara əvvəl aldıqları faktiki əmək haqqı, əgər çoxdursa, o zaman 712 manat məbləğində vəsaitin hər bir muzdlu işçiyə ödənilməsi təmin ediləcək.

Bildirilib ki, həmin sahibkarın dövlət büdcəsinə vergi və ya sosial sığorta üzrə borcları olsa belə, məqsədli vəsaitlərin ünvana çatdırılması üçün banklardan sərəncamların geri götürülməsi təmin olunacaqdır.

Pandemiyadan zərər çəkən sahələrdə fəaliyyət göstərən işəgötürənlərin muzdlu işçilərinə əməkhaqlarının ödənilməsi 2 ay ərzində bərabər hissələrlə həyata keçiriləcək.

Vurğulanıb ki, işəgötürənlər özlərinin sosial məsuliyyəti məsələsini də yaddan çıxarmamalıdırlar. Muzdlu işçilərin əməkhaqqının ödənilməsinə dəstək dövlət tərəfindən ünvanlı şəkildə aparılır. Vəsait yalnız təyinatı üzrə, işçilərə əməkhaqqı kimi ödənilməlidir. Muzdlu işçilərin əməkhaqları, həmçinin onların fərdi sosial sığorta hesabında vəsaitlərin toplanmasının davam etməsi üçün sosial sığorta ayırmalarının da sahibkarın hesabına köçürülməsi təmin edilir. Vəsaitlərdən yalnız təyinatı üzrə istifadə olunmalıdır, əks halda, onlar dövlət büdcəsinə qaytarılacaq və müvafiq tədbirlər görüləcəkdir.

Hazırlanmış proqram təminatlarında fərdi (mikro) sahibkarların da müraciət etmələri ilə bağlı alt bölmə yaradılıb. Fərdi (mikro) sahibkarlar da İnternet Vergi İdarəsində olan şəxsi kabinetləri vasitəsilə müvafiq alt bölmədən istifadə etməklə müraciət edə bilərlər. Bu zaman da, yuxarıda qeyd olunduğu kimi, müvafiq məlumatların bir hissəsi sistem tərəfindən elektron qaydada doldurulur. Bu, sahibkarın qeydiyyatda olduğu vergi orqanının adı, onun VÖEN-i və aktiv bank hesabları haqqında məlumatlardır. Sahibkar tərəfindən isə müraciətə müvafiq vergi rejimi barədə məlumatlar əlavə edilir. Belə ki, fərdi (mikro) sahibkarlar 4 vergi rejimindən birində fəaliyyət göstərdikdə, onlara vəsaitlərin ödənilməsi təmin ediləcəkdir. Bu rejimlərə sahibkarın 2 faiz dərəcə ilə sadələşdirilmiş vergi rejimində fəaliyyət göstərməsi, fərqlənmə nişanı əsasında daşıma fəaliyyəti ilə məşğul olması, sabit vergi qəbzi ilə fəaliyyət göstərməsi və dövriyyəsi 12 ay ərzində 200 min manatı keçmədiyi halda mikro sahibkar kimi gəlir vergisi rejimində fəaliyyət göstərməsi aiddir.

Sahibkar sistemdə bu vergi rejimlərindən birini və vəsaitin ödəniləcəyi bank hesabını qeyd edir. Bundan sonra sistem tərəfindən doldurulmuş məlumatların emalı aparılır. Bu halda da sistem tərəfindən uyğunsuzluqlar aşkar edilə bilər. Uyğunsuzluqlar, əsasən, sahibkarın qeyd etdiyi vergi rejimi ilə uçot baza məlumatlarında olan vergi rejiminin üst-üstə düşməməsi və ya aktiv bank hesabının olmaması, 2019-cu ildə dövlət büdcəsinə ödənişlərin həyata keçirilməməsi ilə bağlı ola bilər. Uyğunsuzluq aşkarlandıqda sahibkara müvafiq mesaj göndərilir. Əgər məlumatlar doldurularkən uçot-baza məlumatlarında olan reyestr məlumatları ilə sahibkarın doldurduğu məlumatlar arasında uyğunsuzluqlar olarsa, sahibkara bu məlumatların dəqiqləşdirilməsi və yenidən müraciət etməsi üçün imkan yaradılır. Beləliklə, sistem tərəfindən müraciət qəbul olunduqdan sonra müvafiq emaldan keçir və gün ərzində Maliyyə Nazirliyinə göndərilir ki, müvafiq tranzit hesabdan sahibkarın göstərdiyi bank hesabına vəsaitin ödənilməsi təmin edilsin.

Fərdi mikro sahibkarlara ödənişin həcmi minimum 250 manat təşkil edir. Əgər onun ödənişləri 2019-cu il ərzində 250 manatadək olubsa, həmin sahibkara 250 manat ödəniləcək. Əgər vergi ödənişləri daha böyük məbləğdə olarsa, sahibkarlara ödənilən vəsaitlərin məbləği 5000 manata qədər ola bilər.

N.Şirinov qeyd edib ki, aprelin 9-dan etibarən İqtisadiyyat Nazirliyinin elektron sistemi və müvafiq proqram təminatı göstərilən parametrlər üzrə kütləvi müraciətlərin qəbuluna tam hazırdır. İdarə rəisi yalnız Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş sahələrdə fəaliyyət göstərən və pandemiyadan zərər çəkmiş sahibkarların maliyyə dəstəyi proqramından yararlanmaq üçün müraciət etməli olduqlarını xüsusi qeyd edib.

# DSX-nin rəisi "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrində xidməti-döyüş fəaliyyətinin təşkilini yoxlayıb





Aprelin 7-dən 9-dək Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrində xidməti-döyüş fəaliyyətinin təşkilini yoxlayıb.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən verilmiş tapşırıqların icra vəziyyəti öyrənilib, təmas xəttində döyüş mövqelərində xidmətdə olan sərhədçilərlə görüş




təşkil edilib, xidməti və yaşayış şəraitlərinə baxış keçirilib.

"Qazax" əlahiddə sərhəd diviziyasının xidməti-döyüş fəaliyyətinin təşkili və düşmən təxribatlarının qarşısının alınması, zəruri sərhəd mühafizə və müdafiə infrastrukturunun yaradılması üzrə görülən tədbirlər nəzərdən keçirilib, hərbi hissə və bölmələrin döyüş hazırlığının yüksəldilməsi, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi istiqamətində zəruri göstərişlər verilib.

# Mədəniyyət naziri videoqəbul keçirib

Ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün reallaşdırılan sosial izolyasiya tədbirləri və karantin rejimi ilə bağlı Mədəniyyət Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları və Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyənləşdirdiyi tələb və tövsiyələr əsasında davam etdirir.

Mədəniyyət Nazirliyi Aparatında, nazirliyin tabe təşkilatları, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və regional idarələrdə, aparıcı mədəniyyət müəssisələrində fəaliyyət videokonfans rejimində tənzimlənir. Mövcud vəziyyətdə fəaliyyətini müvəqqəti dayandırmış müəssisə və təşkilatların əməkdaşlarının distant formada işləməsi təmin edilib.

AZƏRTAC xəbər verir ki, aprelin 9-da Mədəniyyət naziri Əbülfəs Qarayev videoqəbul keçirərək, əvvəlcədən növbəlilik əsasında qəbula yazılmış vətəndaşların müraciətlərini dinləyib, suallarını cavablandırıb.

Videoqəbulda nazir müavini Rafiq Bayramov, nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov, nazirliyin Aparat rəhbəri Fikrət Babayev, regional idarələrin rəisləri və nazirliyin digər məsul əməkdaşları iştirak edib.

Əbülfəs Qarayev əvvəlcə ölkə ərazisində koronavirus infeksiyasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərdən danışıb, vətəndaşlarımızın dövlət tərəfindən tətbiq edilən xüsusi qaydalara əməl etməsinin vacibliyini qeyd edib. Vurğulanıb ki, Prezident İlham Əliyevin



və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə müvafiq dövlət qurumları tərəfindən koronovirusla mübarizədə qətiyyətli addımlar atılır və ölkəmiz bu çətin sınaqdan qısa zamanda çıxacaqdır.

Nazir bu günlərdə ölkəmizin mədəniyyət sahəsinin idarə olunması ilə bağlı görülən işləri, vətəndaşlara mədəni xidmətlərin göstərilməsi, videodərslərin keçirilməsi, muzeylərə və qoruqlara virtual turların, onlayn kitabxana xidmətlərinin təşkili, eləcə də digər mədəniyyət müəssisələrinin bu istiqamətdə həyata keçirdikləri tədbirləri yüksək qiymətləndirib. Əbülfəs Qarayev belə tədbirlərin daha da inkişaf etdirilərək gələcəkdə də davamlı həyata keçirilməsinin müasir dövrün tələbləri kimi dəyərləndirib.

Eyni zamanda, Mədəniyyət Nazirliyi tərəfindən başladılan layihə və təşəbbüslərin ictimaiyyət tərəfindən rəğbətlə qarşılandığı diqqətə çatdırılıb. Nazir mədəniyyət işçilərini yaranmış vəziyyətdən səmərəli istifadə edərək öz yaradıcılıqlarını inkişaf etdirməyə, bütövlükdə ölkəmizin mədəni həyatının daha da zənginləşməsinə töhfə verməyə çağırıb.

Daha sonra vətəndaşların müraciətləri dinlənilib.

Videoqəbulda vətəndaşlar tərəfindən istedadlı uşaqlar üçün mədəniyyətin müxtəlif sahələri üzrə onlayn müsabiqələrin təşkili, ümumrespublika bədii qiraət müsabiqəsinin keçirilməsi, onlayn dərslərin genişləndirilməsi, "Bölgələrdə yaşayan tarix" adlı layihənin icrası, İsmayıllı rayon Tarix-Diyarşünaslıq Muzeyində ekspozisiyanın qurulması və muzeyin balansa götürülməsi, Tovuz rayon Aşıq Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinə yeni ştatların verilməsi, ixtisasartırma kurslarının onlayn təşkili barədə müraciətlər səsləndirilib.

Vətəndaşlar, həmçinin mədəniyyət müəssisələrinin nəzdindəki biçmə-tikmə dərnəklərində tibbi maskaların hazırlanması, kreativ sənayenin inkişaf etdirilməsi və satışların həyata keçirilməsi üçün regional idarələrin əhatə etdiyi rayon və şəhərlərdə yerli icra hakimiyyət orqanları tərəfindən müəyyən yerlərin ayrılmasına dəstək göstərilməsi, kitabxana fondlarının ehtiyatlarının saytlarda nümayiş etdirilməsi məqsədilə proqram təminatı, kitabxanaların müasir standartlara uyğun texniki avadanlıqlarla təchiz olunması və digər məsələlərlə bağlı nazirə müraciət ediblər.

Vətəndaşların bütün müraciətləri dinlənilib, qaldırılan məsələlər müvafiq qaydada qeydə alınıb. Bəzi xahişlər həll edilib, digər müraciətlərin araşdırılması və qanunvericilik çərçivəsində həll olunması üçün müvafiq tapşırıqlar verilib.

Əbülfəs Qarayev sonda bir daha videoqəbulun keçirilməsinin əhəmiyyətini vurğulayaraq, vətəndaşlarla birbaşa qəbullarla yanaşı, bu formada ünsiyyətin də gələcəkdə davam etdirilməsinin vacibliyini qeyd edib.

Biz birlikdə güclüyük!

# Koronavirusla mübarizədə qətiyyətli addımlarına görə Prezident İlham Əliyevə çoxsaylı minnətdarlıq məktubları ünvanlanır

*Əvvəli 1-ci səh.*



"Hörmətli cənab Prezident, xüsusilə də ölkə vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyiniz layihələr, atdığınız uğurlu addımlar təqdirəlayiqdir. Sizin daim diqqət mərkəzində saxladığınız sahələrdən biri də səhiyyədir ki, biz qazaxlılar bu sahənin inkişafı istiqamətində gördüyünüz işlərin real şahidi olduq. Martım 3-də Sizin iştirakınızla Qazax Rayon Mərkəzi Xəstəxanası üçün 145 çarpayılıq 10 korpusdan ibarət yeni xəstəxana binasının istifadəyə verilməsi bölgələrimizdə səhiyyəyə olan qayğınızın bariz nümunəsidir. Bu gün düşmənlə 168 kilometr sərhədi olan Qazaxda belə yüksək səviyyəli xəstəxananın inşa olunması dövlətimiz tərəfindən səhiyyə işçilərinə göstərilən qayğı ilə yanaşı, həm də biz sakinlərə olan diqqət deməkdir. Bakıdan 500 kilometr məsafədə yerləşən Qazaxda müasir standartlara cavab verən xəstəxananın olması bir daha göstərir ki, dövlətimiz nəinki paytaxtda, eləcə də bölgələrimizdə vətəndaşlarımızın sağlamlığının qorunması istiqamətində mühüm addımlar atır.

Əziz Prezidentimiz, ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə bir gənc kimi Sizə təşəkkür edir, müstəqil Azərbaycanımızın daha da çiçəklənməsi uğrunda gələcək işlərinizdə nailiyyətlər arzulayıram", - deyə o qeyd edir.

Cəlilabad rayonunun Qarakazımlı kənd sakini **Fariz Ağayev** yazır: "Möhtərəm cənab Prezident, Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısısınız. Xalqımızın rifahı, daha yaxşı yaşaması üçün gördüyünüz bütün işləri alqışlayır, yorulmaz fəaliyyətinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Sizin Azərbaycanın inkişafı üçün gördüyünüz işlərin miqyası nə qədər böyük olsa da, əhəmiyyəti illər sonra daha da artacaq. Buna görə xalq Sizi sevir, dəstəkləyir.

Əminik ki, Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən uğurla gələcəyik. Allah Sizi qorusun".

Sumqayıt şəhər sakini **Əli Teymurov** koronavirusun dünyada geniş yayıldığı bir vaxtda xaricdə təhsil alan tələbələrimizə də diqqət və qayğı ilə yanaşdığına görə dövlətimizin başçısına minnətdarlıq edir. O yazır: "Hörmətli cənab Prezident, ölkəmizin Türkiyədəki səfirliyi tərəfindən orada oxuyan tələbələrimizə, o cümlədən İstanbul Texniki Universitetində təhsil alan oğluma göstərilən diqqət və qayğıya görə ailəmiz adından Sizə dərin minnətdarlığımızı bildirirəm.

Cənab Prezident, koronavirus pandemiyasının dünyada geniş yayıldığı bir vaxtda Siz xaricdə təhsil alan tələbələrimizi də daim diqqətdə saxlayır, belə çətin vəziyyətdə onlara həm mənəvi, həm də maddi dəstək göstərirsiniz.

Əziz Prezidentimiz, bir daha Sizə minnətdarlığımızı bildirir, cansağlığı, işlərinizdə uğurlar arzulayırıq. Allah Sizi və ailənizi qorusun".

Sumqayıtın daha bir sakini **Azər Rəşidov** dövlət başçısının vaxtında atdığı uğurlu addımlar, verdiyi müdrik qərarlar sayəsində ölkəmizin koronavirus pandemiyası ilə qətiyyətlə mübarizə apardığını vurğulayaraq yazır: "Hörmətli cənab Prezident, tarix sübut edir ki, güclü və müdrik lider hər bir xalq, hər bir dövlət üçün çox mühüm amildir. Biz bunu müstəqil Azərbaycanımızın timsalında da görmüşük və bu gün də görürük. Ulu Öndər Heydər Əliyev ölkəmizi, xalqımızı fəlakətdən necə xilas etmişdisə, Siz də bu gün Azərbaycanı böyük bəlalardan qoruyursunuz. Son vaxtlar yaşanan hadisələr bunu bir daha sübut edir. Vaxtında atdığınız uğurlu addımlar, verdiyiniz müdrik qərarlar sayəsində ölkəmiz koronavirus pandemiyası ilə qətiyyətlə mübarizə aparır və əminik ki, bu mübarizədən qalib ayrılacaqdır.

Əziz Prezidentimiz, qədirbilən Azərbaycan xalqı Sizin işlərinizin dəyərini çox yaxşı bilir və Sizə hər zaman güvənir. Hər bir gözəl işinizə görə çox sağ olun!".

Salyan rayonunun Şorsulu kəndinin sakini **Daşqın Cəbiyev** daim xalqımızı düşündüyünə və hər bir vətəndaşın qayğısına qaldığına görə Prezident İlham Əliyevə gənclər adından minnətdarlıq edir. O yazır: "Möhtərəm cənab Prezident, mən bir gənc olaraq çox sevinirəm ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi gənclər siyasəti bu gün Sizin tərəfinizdən uğurla davam etdirilir. Məhz həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Sizin xalqa göstərdiyiniz diqqət və qayğı biz vətəndaşların daha yaxşı yaşamasına, rifahımızın yüksəlməsinə xidmət edir. Hazırda dünyada, eləcə də ölkəmizdə yayılmış koronovirus pandemiyasının qarşısının alınması üçün təcili və təxirəsalınmaz tədbirlər görürsünüz.

Cənab Prezident, insanların sağlamlığının qorunması məqsədilə Sizin tapşırığınızla hər bir vətəndaşa hər cür yardım göstərilir. Gördüyünüz bu işlər, qabaqlayıcı tədbirlər bir daha sübut edir ki, Siz daim xalqımızı düşünür və hər bir vətəndaşın qayğısına qalırsınız. Hər bir işiniz xalq tərəfindən dəstəklənir. Gördüyünüz bütün bu işlərə görə, cənab Prezident, Sizə Salyan gəncləri adından dərin minnətdarlığımı bildirir, çətin və şərəfli işinizdə daim uğurlar arzulayırıq".

Bakı şəhəri, Binəqədi rayonunun sakini **Nuridə Muradova** yazır: "Hörmətli cənab Prezident, Sizin ölkəmiz, xalqımız üçün gördüyünüz işlər hamıya bəllidir. Bu günlərdəki fədakarlığınız da göz önündədir və xüsusi qeyd olunmalıdır. İndiki ağır günlərdə daim xalqımızı düşündüyünüz, ona dəstək olduğunuz və qayğısına qaldığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Qürur duyur, fəxr edirəm ki, Sizin kimi dövlət başçımız var. Çox sağ olun. Allah Sizi qorusun!".

Gəncə şəhər sakini **İlqar Əliyev** Azərbaycan Prezidentinin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizdə pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atıldığını vurğulayır. O yazır: "Möhtərəm cənab Prezident, dünyanı çənginə almış koronavirus pandemiyası Azərbaycandan da yan keçməyib. Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atılıb, dövlətimiz bütün imkanlarını epidemiyanın qarşısının alınmasına və fəsadlarının aradan qaldırılmasına yönəldib. Bütün bunlar sübut edir ki, yürütdüyünüz siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Cənab Prezident, bütün bu işlərə görə Sizə təşəkkür edir, minnətdarlığımızı bildiririk. Sizinlə qürur duyuruq".

Bakı şəhəri, Yasamal rayonunun sakini **Samir İsmayılov** koronavirus epidemiyası ilə mübarizədə xalqımıza göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq edərək yazır: "Mən bir vətəndaş kimi Sizin gördüyünüz işlərə könüllü olaraq dəstək verməyə hazıram. Allah Sizi və ailənizi qorusun!".

Prezident İlham Əliyevə minnətdarlıq məktubları yazanlar arasında Azərbaycan vətəndaşı olmayan, lakin ölkəmizdə yaşayan şəxslər də var. Onlardan biri də Bakıda yaşayan **Oksana Uzbaşovadır.** O yazır: "Möhtərəm cənab Prezident, xalqınızı qoruduğunuza, koronavirusa operativ reaksiya verdiyinizə görə Sizə minnətdarlıq etmək istəyirəm. Allah Sizə cansağlığı versin. Çox əfsuslar olsun ki, mən Azərbaycan vətəndaşı deyiləm. Lakin Bakıda yaşadığım üçün özümü təhlükəsizlikdə hiss edirəm və bu, Sizin sayənizdədir. Buna görə şəxsən öz adımdan və ailəm adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan vətəndaşı ilə ailə qurmuşam və artıq 5 ildir ki, ölkənizdə yaşayıram. Çox sevinirəm ki, qız övladım müstəqil Azərbaycanda sabit, firavan mühitdə böyüyür. Ailəmiz adından Sizə və ailə üzvlərinizə bir daha təşəkkür edirəm".

# Özümüzü və özümüzünküləri düşünək: *"evdə qalaq, sağlam olaq"*

## Xüsusi təcrid rejimini pozanlar təkcə öz sağlamlıqlarını deyil, doğmalarının da həyatını riskə atırlar

Bu gün dünya böyük bir fəlakətlə üz-üzədir. Ölkəmiz də çətin bir sınaq qarşısındadır. Dövlətimiz vaxtında önləyici addımlar atıb. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva həmişə xalqın, vətəndaşların yanındadır. Belə bir dövrdə milli həmrəylik, birlik çox vacibdir. Bildiyiniz kimi, Prezident İlham Əliyevin təşəbbüsü ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Qısa müddətdə bu fonda ciddi ianələr edildi, xalqımız birliyini bir daha nümayiş etdirdi. Bir sənətçi kimi mən də Prezidentin çağırışına qoşuldum, biraylıq vəzifə maaşımı bu fonda köçürdüm. Belə bir zamanda ianənin məbləği yox, xalqımızın həmrəyliyi önəmlidir.



Xatırladaq ki, koronavirus (COVID-19) infeksiyasının Azərbaycan ərazisində geniş yayılmasının qarşısının alınması üzrə dövlət tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində insanların fərdi evlərində və mənzillərində, daimi və ya müvəqqəti yaşadıqları (olduqları) yerlərdə qalmaları tələb olunur.

Fərdi evlərdən və mənzillərdən insanların çıxışı təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə getmək, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədilə mümkündür.

İnsanların bir-biri ilə ünsiyyətini minimuma endirmək və bununla da infeksiyaya yoluxmanın sürətinin azaldılması məqsədilə bir sıra iş və xidmət sahələri üzrə fəaliyyət elan olunan müddətdə qadağan edilib.

Azərbaycan xalqı mübarizdir və həmişə belə çətin zamanlarda öz birliyini ortaya qoyub. Düşünürəm ki, bu dəfə də biz sınaqdan üzüağ, alnıaçıq çıxacağıq. Bu, ciddi məsələdir. Əlbəttə, panikaya düşmək lazım deyil, sadəcə olaraq məsələyə daha həssas yanaşmalıyıq. Sosial təcrid qaydalarına hər bir vətəndaşımız riayət etməlidir. Ciddi zərurət yoxdursa, evdən çölə çıxmamalıdır. Təəssüflər olsun ki, hələ də bəzi insanlar məsələnin ciddiyyətinin fərqinə varmır, xüsusi təcrid rejimini kobud şəkildə pozur. Onlar təkcə öz sağlamlıqlarını deyil, doğmalarının da həyatını riskə atırlar. Qoyulmuş qaydalara əməl etməklə biz bu dar məqamdan ən az itkilərlə çıxacağıq.

Unutmayaq ki, həyat, yaşamaq gözəldir. Evdə qalaq, sağlam olaq, biz birlikdə güclüyük.

***Mənsum İBRAHİMOV,***
***Xalq artisti,***
***professor***

# Müstəqillik tariximizin ən böyük dəstək proqramı

## Prezident İlham Əliyevin genişmiqyaslı iqtisadi və sosial paketi sahibkarları və həssas təbəqəyə aid olan vətəndaşları koronavirus böhranından qoruyacaq

*Əvvəli 1-ci səh.*

Onların hər biri sosial müdafiə tədbirləri ilə əhatə olunub. Bütün dövlət qurumlarına müvafiq tapşırıq verilib və hər hansı əsassız ixtisarlara yol verilmir. Müəyyən edilmiş kvota çərçivəsində həyati vacib qurumların fəaliyyətini davam etdirməsi üçün minimal sayda işçi işə cəlb olunub. Digərləri isə əməkhaqqı saxlanılmaqla məzuniyyətə göndərilib. Onların gəlirlərinin davamlılığı təmin edilir.

### Sahibkarlıq sahəsində çalışan muzdlu işçilər üçün 215 milyon manatlıq dəstək

Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin ilkin mərhələdə əməkhaqqının müəyyən hissəsinin ödənilməsi və fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı da açıqlanıb.

Pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində və klasterlərdə çalışan 300 min nəfər muzdlu işçinin (əmək müqaviləsi olan) də əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat həcmində maliyyə dəstəyinin göstərilməsini nəzərdə tutur. Bu mexanizm çərçivəsində vergi ödəyicilərinin mövcud olan elektron kabinetləri vasitəsilə təqdim etdikləri müraciətlər əsasında, qısa müddət ərzində onların işçilərinə ödənilməli olan əməkhaqqının və ona müvafiq sosial sığorta haqlarının müəyyən hissəsi işəgötürənlərin bank hesablarına köçürüləcək.

Fərdi (mikro) sahibkarın 2019-cu il ərzində dövlət büdcəsinə ödənişinin məbləği 250 manatdan az olduğu təqdirdə ona 250 manat məbləğində maliyyə dəstəyi göstəriləcək.

Vergi ödəyicilərinə ödəmələr aprel və may ayları daxil olmaqla 2 mərhələdə aparılacaq. Bank tərəfindən ayrılan maliyyə dəstəyi vəsaitinin yalnız əmək ödənişləri üzrə köçürülməsinə icazə verilir. Vergi ödəyiciləri bu vəsaitlərdən hər hansı digər məqsədlər üçün istifadə edə bilməzlər və bu məsələyə ciddi nəzarət olunacaq.

### Ünvanlı dövlət sosial yardımın verilməsində də dəyişikliklər olacaq

Pu proqramların icrası nəticəsində ünvanlı dövlət sosial yardımın verilməsində də dəyişikliklər olacaq. Belə ki, ünvanlı sosial yardımın xüsusi karantin rejimi dövrü bitənədək bütün ailələrə verilməsinin davam etdirilməsi və bu dövrdə ünvanlı dövlət sosial yardımın təyinatının sadələşdirilməsi nəzərdə tutulub.

Bu, 62 min vətəndaşı əhatə edəcək. Burada məqsəd ondan ibarətdir ki, 62 min vətəndaş üçün hətta ünvanlı sosial yardım dövrü başa çatsa da belə karantin dövründə həmin müddətin uzadılması həyata keçiriləcək. Eyni zamanda ünvanlı sosial yardıma müraciət imkanları asanlaşacaq.

Sosial baxımdan həssas əhali qrupuna aid ailələrin üzvü olan tələbələrin təhsil haqqı da 2020-ci ildə dövlət tərəfindən ödəniləcək. Bu istiqamətə 40 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Burada məqsəd ondan ibarətdir ki, həmin ailələrin təhsil haqqının ödənilməsi ilə bağlı problemi olarsa, onlara dəstək göstəriləcək.

Aprel və may aylarında həm də elektrik enerjisi ilə bağlı limitlər tətbiq olunacaq. Bu xərc də dövlət büdcəsi hesabına qarşılanacaq və bu istiqamətə 10 milyon manat vəsait ayrılacaq. Bu baxımdan tədbirlər planı daha çox aprel və may aylarında birbaşa dəstəyin, ödənişlərin ödənilməsi ilə müşahidə olunacaq.

Bütün bunlar bir daha təsdiq edir ki, hər zaman siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan cənab İlham Əliyev bu ağır karantin dövründə də xalqın maddi durumunu düşünür və öz dəstəyini əsirgəmir. Əminliklə deyə bilərik ki, dövlət başçısının genişmiqyaslı iqtisadi və sosial paketi həm iqtisadi sahədə artan dinamikaya müsbət təsir göstərəcək, həm də həssas təbəqəyə aid olan vətəndaşları bu böhrandan qoruyacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İşsizlər üçün birdəfəlik ödəmə ər və ya arvaddan birinə, habelə onların işsiz olan övladlarına veriləcək

İşsiz şəxslər üçün nəzərdə tutulan birdəfəlik ödəmə (190 manat) ailədə əmək qabiliyyətli, lakin faktiki işsiz olan və sosial ödəniş almayan övladlara da veriləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əgər ailədə ər və arvad ikisi də işsizdirsə, onlardan birinə, eyni zamanda, ailənin digər üzvləri (məsələn ailənin oğlu və ya qızı) işsizdirsə və sosial ödəniş almırsa, onlara da veriləcək.

Aprelin 1-nə qədər işsiz kimi qeydiyyata alınanlarla yanaşı, xüsusi karantin rejiminin davam etdiyi dövrdə də işsiz kimi qeydiyyata alınan şəxslər də bu birdəfəlik ödəməni alacaqlar. Artıq bir dəfə müraciət etmiş şəxsin təkrar müraciətinə ehtiyac yoxdur.

Həmçinin şəxsiyyət vəsiqəsinin müddəti bitmiş şəxslər üçün də xüsusi karantin rejimi dövrünə müraciət imkanı yaradılıb. Belə ki, onların şəxsiyyət vəsiqəsinin müddəti xüsusi karantin rejiminin sonunadək uzadılıb.

Birdəfəlik ödəmə ilə bağlı müraciət imkanlarını bir daha xatırladırıq:

1. e-sosial.az portalında "e-xidmətlər" bölməsinə daxil olaraq "Vətəndaşların işaxtaran və işsiz kimi qeydiyyata alınması, qeydiyyatdan müvəqqəti çıxarılması və qeydiyyatın müvəqqəti ləğv edilməsi" linkinə daxil olaraq. Bunun üçün "ASAN imza" və ya elektron imza tələb olunur.

2. Daha rahat yolu: e-sosial.az portalında "onlayn müraciət" bölməsindən istifadə etməklə hər hansı bir qeydiyyat proseduru tələb olunmadan işsiz və ya işaxtaran kimi uçota alınmaq olar. Burada müraciət şəxsiyyət vəsiqəsinin və FİN nömrələrini daxil etməklə, "İstiqamət" bölməsində "məşğulluq sahəsində göstərilən xidmətlər", "Xidmət növü" bölməsində isə "vətəndaşların işaxtaran və işsiz kimi qeydiyyata alınması və qeydiyyatdan çıxarılması" bölmələrini seçmək lazımdır.

3. İnternetə çıxış imkanları olmayan işsizlər isə qeydiyyata alınmaq üçün müvafiq rayon (şəhər) Məşğulluq mərkəzlərinin telefon nömrələrinə (Telefon nömrələri: http://sosial.gov.az/laq-nomrlri) zəng edə bilərlər.

Ölkənin şəhər və rayonları üzrə elektron qaydada müraciət günlərinin aprelin 12-dək olan dövr üçün qrafiki də təqdim edilib (http://sosial.gov.az/post/3321). Hələ ki, vətəndaş olduğu rayon üzrə qrafikdə qeyd edilən gün e-qaydada müraciət edir. Sonrakı günlərdə isə hər bir işsiz şəxs istənilən gün e-qaydada müraciətini edə biləcək.

# Ünvanlı yardım alan ailələrin sayı son 10 gündə 13,2 faiz artaraq 78130-a çatıb




Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq ünvanlı dövlət sosial yardımının əhatə dairəsinin genişləndirilməsi, təyinatın sadələşdirilməsi və aztəminatlı ailələrə əlçatanlığının artırılması üçün işlər davam etdirilir.

Görülən işlər nəticəsində proqramın əhatə etdiyi ailələrin sayında növbəti artım özünü göstərib.

Belə ki, son 10 gündə ünvanlı dövlət sosial yardımı alan ailələrin sayında 13,2 faiz artım qeydə alınmaqla bu yardımı alan ailələrin sayı 9100 ailə artıb. Hazırda 78 130 (330 minədək ailə üzvü) ailə sosial yardım alır.

Hər ailəyə düşən yardımın məbləği 222 manata çatıb.

Qeyd edək ki, dövlət başçısının 19 mart 2020-ci il tarixli sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planına uyğun olaraq xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyinolunma müddəti bitən aztəminatlı ailələrə də bu yardımın verilməsi karantin rejimi başa çatdığı tarixdən sonrakı ayın 1-dək uzadılıb.

***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsi***

# Əlilliyi olan şəxslərin sosial müdafiəsində yeni addım

## Xüsusi karantin rejimi dövründə əlillik müddəti başa çatan şəxslər üçün bu müddət uzadıldı

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, koronavirus pandemiyası ilə mübarizə şəraitində həssas əhali qruplarının, o cümlədən əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi diqqətdə saxlanılır.



Nazirlər Kabinetinin yeni qərarı bu məqsədə xidmət edən növbəti addımdır. Qərara əsasən 2020-ci il martın 1-dən etibarən əlillik müddəti başa çatan əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların əlillik müddəti xüsusi karantin rejiminin bitdiyi tarixdən sonrakı ayın 1-dək uzadılıb.

Beləliklə, onlara əlilliyə görə təyin olunmuş aylıq müavinətin və ya pensiyanın, habelə onlardan 1-ci dərəcə əlilliyi olanlara, sağlamlıq imkanları məhdud uşaqlara qulluq edənlərə təyin olunmuş aylıq təqaüdün ödənişi də xüsusi karantin rejimi müddətində davam edəcək.

Həyata keçirilən bu sosial müdafiə tədbiri əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial hüquqlarının təminatı və rifahının dəstəklənməsi sahəsində aparılan işlərin hazırkı xüsusi karantin rejimi müddətində də davam etdirildiyini göstərir.

***"Azərbaycan"***

# Son günlərdə 13 minədək tənha yaşlıya ərzaq yardımı edilib

Xüsusi karantin rejimi dövründə evdən çıxmağı qadağan edilən yaşı 65-dən yuxarı tənha yaşayan şəxslərə sosial xidmətlərlə yanaşı, ehtiyacı olanlara ərzaq yardımları da edilir.




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu məqsədlə bir sıra qurumlar və şirkətlər tərəfindən, ümumilikdə, 13 minədək tənha yaşlıya ərzaq yardımı edilib. Hazırda həmin proses davam etdirilir.

Ərzaq yardımlarının verilməsi respublikanın bütün bölgələrini əhatə edir.

## Qabaqlayıcı tədbirlər səmərə verir

Yeni növ koronavirus planetimizdə tüğyan edərək kütləvi qırğınlar və yoluxmalar törətməkdə davam edir. Qlobal problemə çevrilən COVID-19 koronavirus pandemiyası bir çox dövlətlər üçün real təhdidə çevrilib. Bütün dünyada bu infeksiyaya yoluxanların sayı saatbasaat artır. Artıq koronavirus 209 ölkədə 1 milyon yarımdan çox insana yoluxub, 89 minə yaxın şəxsin həyatına son qoyub. ABŞ, İtaliya, İspaniya, Almaniya, Fransa kimi dövlətlər isə koronavirusa yoluxma sayına və insan ölümünə görə xəstəliyin "vətəni" sayılan Çini geridə qoyublar.

### Dünya koronavirusla üz-üzədir

Hətta hazırda ABŞ dünyada koronavirus qurbanlarının sayına görə ikinci yerə çıxıb. Cons Hopkins Universitetinin məlumatına görə, ABŞ pandemiya qurbanlarının sayına görə İspaniyanı qabaqlayıb. Dünyada koronavirusdan ən çox insan isə İtaliyada vəfat edib.

ABŞ-da artıq ikinci gündür koronavirusdan rekord sayda ölüm baş verir. Ötən gün ərzində Birləşmiş Ştatlarda yeni virusdan 1973 nəfər ölüb. Ölkədə COVID-19 infeksiyasına ümumilikdə 430376 nəfər yoluxub. 14739 nəfər pandemiyanın qurbanı olub, xəstəxanalarda müalicə edilən 23707 nəfər sağalaraq evə buraxılıb.

İtaliyada son sutka ərzində yeni koronavirus səbəbi ilə ölənlərin sayı əvvəlki günlə (604 nəfər) müqayisədə bir qədər azalaraq 542 nəfər olub. Epidemiyanın başlanğıcından bəri koronavirus qurbanlarının ümumi sayı İtaliyada 17,6 min nəfərdən çoxdur. Virusa yoluxanların sayı son sutkada öncəki günlə (880) müqayisədə artaraq 1195 nəfər təşkil edib. Eyni zamanda ölkədə son sutkada rekord sayda insan - 2099 nəfər koronavirusdan sağalıb. Sağalanların ümumi sayı isə 26491 nəfərə çatıb. İtaliyada epidemiyanın başlamasından bəri yoluxmuş insanların sayı sağalmış və ölmüş insanlar da daxil olmaqla 139 422 nəfərdir.

İranda ötən sutka ərzində yeni koronavirus nəticəsində daha 117 nəfər ölüb. Ümumilikdə İranda bu virusun yayılması 4110 nəfərin ölümü ilə nəticələnib. Ötən 24 saat ərzində daha 1634 nəfər koronavirusa yoluxub. Hazırda ölkədə bu virusa yoluxanların sayı 66220 nəfərə yüksəlib. İndiyədək 32309 nəfər sağalaraq evə buraxılıb.

Cənubi Koreyada son bir gün ərzində koronavirusa 39 yeni yoluxma qeydə alınıb. Ötən gün ölkədə koronavirusa yoluxmuş 197 nəfər sağalıb. Koronavirusa yoluxanların ümumi sayı 10423 nəfərə çatıb, 204 insan pandemiyanın qurbanı olub.

Almaniyada koronavirusa yoluxma hallarının sayı 108202-yə çatıb. İndiyədək virusdan 2107 nəfər ölüb, 2693 insan sağalıb.

Fransada yeni növ koronavirusdan ölənlərin sayı 10,8 mini ötüb. Ümumilikdə ölkədə koronavirusdan ölənlərin sayı son sutka ərzində 541 nəfər yüksələrək 20 869-a yüksəlib. Epidemiya başlayandan 60 min insan xəstəxanaya yerləşdirilib, 30375 nəfər hazırda xəstəxanalarda qalır, onlardan 7148 nəfərin vəziyyəti ağırdır.

Türkiyədə son 24 saat ərzində daha 87 nəfər yeni növ koronavirusdan (COVID-19) vəfat edib. Bununla da qardaş ölkədə koronavirusdan ölənlərin ümumi sayı 812 nəfərə çatıb. Ölkədə 4117 yeni yoluxma halı qeydə alınıb, nəticədə yoluxanların ümumi sayı 38226 nəfərə çatıb.

Braziliyada koronavirusa yoluxanların sayı 15927-yə yüksəlib. Son sutka ərzində 2156 yoluxma faktı qeydə alınıb. Ölkədə koronavirusdan 800 nəfər ölüb.

İsraildə son sutkada koronavirusa 351 yeni yoluxma halı qeydə alınıb, 8 nəfər koronavirusun qurbanı olub. Bununla da İsraildə ölənlərin sayı 79-a, yoluxanların sayı 9755-ə çatıb.

Norveçdə 6160 nəfərdə koronavirus aşkarlanıb. İndiyədək 101 nəfər bu infeksiyanın qurbanı olub.

Rusiyada son bir gündə 1459 nəfərə koronavirus diaqnozu qoyulub, 13 nəfər virusun qurbanı olub. Bununla da yoluxanların sayı 10131 nəfərə, ölənlərin sayı 76-ya, sağalanların sayı isə 698 nəfərə çatıb. Yeni yoluxmalar ölkənin 50 bölgəsində qeydə alınsa da, əksəriyyəti paytaxt Moskvada aşkarlanıb - 857 nəfər.

Son sutka ərzində Belarusda koronavirusa yoluxanların sayı 420 nəfər olub. Ümumilikdə ölkədə yeni növ koronavirusa yoluxanların sayı 1486 nəfərə çatıb. Son sutka ərzində bu üç xəstə vəfat edib. Ölənlərin sayı artıq 16 nəfər təşkil edir.

Özbəkistanda son sutkada 21 nəfər koronavirusa yoluxub. Aprelin 9-na olan məlumata görə, bu ölkədə virusa yoluxanların sayı 555 nəfər təşkil edir.

Qırğızıstanda daha 10 nəfərə koronavirus diaqnozu qoyulub. Ümumilikdə koronavirusa yoluxma hallarının sayı 280-ə çatıb. Onlardan 34-ü həkimdir. İndiyədək 4 nəfər infeksiyanın qurbanı olub.

Qazaxıstanda daha 5 nəfərdə koronavirus infeksiyası aşkarlanıb. Beləliklə, ölkədə qeydə alınmış koronavirusa yoluxma hallarının sayı 764-ə çatıb. Bunlardan 55 nəfər virusdan sağalsa da, 7-si ölüb.

Ermənistanda son sutka ərzində daha 40 nəfərdə koronavirus aşkarlanıb. Beləliklə yoluxanların sayı 921-ə çatıb. Onlardan 138-i sağalıb, 773-nün müalicəsi davam etdirilir, 10 nəfər ölüb.

Gürcüstanda koronavirusa yoluxanların sayı 214 olub. Hazırda ölkə üzrə karantində 4559 nəfər saxlanılır, stasionar müalicədə isə 353 nəfər var. Virusa yoluxmuş şəxslərdən 50-si sağalıb, 3 nəfər isə vəfat edib.

Dünya ölkələrinin intensiv qabaqlayıcı tədbirlər həyata keçirməsinə baxmayaraq, hələ də pandemiyanın qarşısını almaq mümkün deyil. Hətta ən inkişaf etmiş dövlətlər bu xəstəliklə mübarizədə böyük problemlər yaşayır. Müasir xəstəxana və tibbi avadanlıqlara malik ölkələr belə, vətəndaşlarını qorumaqda acizdirlər. Vəziyyət o qədər kritik hal alıb ki, xəstəxanalarda boş yer qalmayıb, süni nəfəs aparatları çatışmır...

### "Karantin rejimi daha da sərtləşdirilə bilər"

Ölkəmizdə də bu cür vəziyyətin yaranmaması üçün hökumət tərəfindən hər cür imkanlar səfərbər edilib. Azərbaycanda vaxtında sosial izolyasiya və karantin rejimi tətbiq olunub. İnsanların bir-biri ilə yaxın əlaqələrini minimuma endirmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq məqsədilə ölkə ərazisindəki xüsusi rejim dövrü aprelin 20-dək gücləndirilib. Aprelin 5-dən 20-dək yükdaşımaları istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşları tam şəkildə dayandırılıb.

Artıq 5 gündür ki, həyata keçirilən xüsusi karantin rejimi çərçivəsində ölkədə müəyyən olunan hərəkət məhdudiyyətlərinin tətbiqinə başlanılıb. İnsanların fərdi evlərindən və mənzillərindən çıxışına yalnız təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə gedildikdə, məişət tullantılarının atılması hallarında, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədilə icazə verilir.




Paytaxtda müvafiq icazə olmadan hərəkət edən şəxslər, eləcə də nəqliyyat vasitələrinin sürücüləri və sərnişinləri yoxlanılır. Müvafiq icazəsi olmayan şəxslər müəyyən olunaraq, barələrində qanunvericiliyə uyğun tədbirlər davam etdirilir.

Belə ki, ötən sutka ərzində karantin qaydalarını pozan şəxslər barədə 3073 inzibati tədbir görülüb. Bunu Nazirlər Kabinetinin Mətbuat Xidmətinin rəhbəri İbrahim Məmmədov Nazirlər Kabineti yanında operativ qərargahın brifinqdə çıxışı zamanı açıqlayıb. O deyib ki, 12 nəfər inzibati həbs cəzası alıb.

İ.Məmmədov əlavə edib ki, dövlət qurumları tərəfindən də qanunsuz icazələrə yol verilir: "Bir çox dövlət qurumları və şirkətlər işdə ehtiyacları olmayan adamların küçəyə çıxmalarına şərait yaradırlar. İcazə üçün saxta arayış hazırlayanlar var. Dövlət qurumlarına 30 faiz işçiyə icazə almaq limiti olsa da, onlar bu limiti aşırlar. Dövlət qurumları həmin idarələrə aidiyyəti olmayan, öz işçiləri olmayan şəxsləri sistemə əlavə edərək onlara icazə alırlar".

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı brifinqdə çıxışı zamanı bildirib ki, ötən həftə karantin rejiminə əməl olunmaması yoluxanların sayının artmasına səbəb olub. Virusun inkubasiya dövrü 14 gün çəkə bildiyi üçün ötən həftə virusa yoluxanlarda simptomlar bu günlərdə özünü göstərir və qeydə alınır: "Həmin şəxslər ünsiyyətdə olduqları adamları virusa yoluxdurduqlarını bilmirlər. Onların 30-60-a qədər insanı yoluxdurması mümkündür və nəzərə alsaq ki, inkubasiya dövrü 14-21 gündür. Önümüzdəki iki həftədə tələb olunan qaydalara ciddi əməl edilsə, 3 həftədən sonra nikbin ssenaridən danışmaq mümkün ola bilər. Vətəndaşlar 2-3 həftə səbir edib evdə qalsa və inkubasiya dövrünü təcrid şəraitində keçirsə, biz yoluxma zəncirini qıra bilərik və bundan sonra ənənəvi həyatımıza davam edərik. Lakin bu dinamika qalarsa, karantin rejimi daha da sərtləşdirilə bilər".

R.Bayramlı vurğulayıb ki, vətəndaşlar karantin rejiminə riayət etməsələr, daha ciddi tədbirlər görülməsi üçün ölkə rəhbərinə müraciət olunacaq: "İnsanlar karantin rejiminə əməl etmirlər. Yoluxanlar və cərimələnənlər hər gün artır. Bu templə davam edərsə, aprelin 20-dən sonra ölkədə daha sərt qərarlar verilə bilər. Buna görə də vətəndaşlar karantin rejiminə əməl etməlidirlər. Dövlət üzərinə düşən hər şeyi edir. Kifayət qədər yüksək qiymətli testlər alınır. Müayinələrin sayı artırılır. Bu gün 63 nəfərin sağalması görülən tədbirlərin nəticəsidir. Amma vətəndaşlar qaydalara əməl etmir. İcazə məsələsindən suiistifadə edirlər. Bu qaydalara da yenidən baxıla, məhdudiyyətlər daha da sərtləşdirilə bilər".

### Bu şəxslərin küçəyə çıxma icazələri ləğv olunur

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" üzrə qeydə alınmış məlumatlar mütəmadi olaraq təhlil aparılır.

Dövlət Agentliyinin məlumatına görə, təhlillər zamanı müəyyən edilib ki, xüsusi karantin rejimi dövründə hüquqi şəxslərin vəzifəli şəxsləri və sahibkarlıq fəaliyyəti hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər tərəfindən işçilər barədə məlumatlar icaze.e-gov.az portalına daxil edilərkən "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 aprel tarixli 124 nömrəli Qərarının tələblərinin pozulması hallarına yol verilib. Bu cür hallara yol vermiş hüquqi və fiziki şəxslərdən 2020-ci il 9 aprel tarixindən etibarən icaze.e-gov.az portalından aşağıdakı şəxslərin icazələrinin ləğv edilməsi tələb olunur:

- xidmət və ya əmək müqaviləsi olmayan şəxslərin;
- fəaliyyətinin davam etdirilməsinə icazə verilməmiş özəl hüquqi şəxslərin mühafizəsi və texniki təhlükəsizliyinin təmin edilməsi üçün tələb olunan işçiləri istisna olmaqla, digər işçilərinin;
- yaşı 65-dən yuxarı olan, karantin rejimində öz yaşayış yerini tərk etməsi ilə bağlı məhdudiyyət qoyulmuş işçilərinin.

"Eyni zamanda, hüquqi və fiziki şəxslərdən tələb olunur ki, xüsusi karantin rejimi dövründə fəaliyyətini iş yerindən davam etdirmələri zəruri olan işçilərinin say həddini müəyyən etsinlər və işə gəlməsi vacib olmayan, fəaliyyətini evdən davam etdirən digər işçilərinin icazələrini portaldan silsinlər. 2020-ci il 10 aprel tarixindən başlayaraq karantin rejimi qaydalarına zidd olan icazələr portaldan avtomatik rejimdə ləğv ediləcək, eləcə də yuxarıda qeyd olunan tələblərə əməl etməyən hüquqi və fiziki şəxslər barəsində hüquq mühafizə orqanlarına məlumat veriləcəkdir", - deyə məlumatda qeyd olunub.

### 10 minə yaxın hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib

Onu da bildirək ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 08.04.2020-ci il saat 00:00-dan 09.04.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1445 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 9959 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Unutmayaq ki, karantin rejiminin pozulmasına görə cəzanın sərtləşdirilməsinin yeganə məqsədi məhz vətəndaşları qorumaqdır. Bəli, vətəndaşların koronavirus infeksiyasından qorunması bu gün Azərbaycan dövləti üçün ən prioritet məsələdir. Ölkəmiz qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirir.

### "Bu sınaqdan üzüağ çıxacağıq"

Baş Nazir Əli Əsədov Milli Məclisdə ötən ilə dair videohesabatında da bildirib ki, hazırda nəzərdə tutulmuş silsilə tədbirlər həyata keçirilir, ölkədə sanitar-epidemioloji vəziyyət nəzarətdədir: "Azərbaycanda koronavirusla mübarizə üçün yetərincə tibbi ləvazimat var və eyni zamanda onların ölkəmizdə istehsalı istiqamətində işlər aparılır. Aprelin 20-nə qədər Azərbaycanda xüsusi karantin rejimi tətbiq edilir və bu tədbirlərin tətbiqi qaçılmazdır".

Baş Nazir vurğulayıb ki, koronavirus pandemiyasının ölkənin sosial-iqtisadi sahəsinə mənfi təsirlərini azaltmaq üçün tərtib edilən müvafiq proqramlar vaxtında icra olunacaq: "Həyata keçirilən bütün tədbirlər xalqın sağlamlığını və ölkənin təhlükəsizliyini qorumaq məqsədi daşıyır. Biz bu vəziyyətdən ən az itkilərlə çıxmalıyıq və vətəndaşlarımızı qorumalıyıq. Hesab edirəm ki, bunun öhdəsindən gələcəyik və bu sınaqdan üzüağ çıxacağıq".

**Vətəndaşların koronavirusdan qorunması dövlətimiz üçün prioritet məsələdir**



***Xəyalə MURADLI, "Azərbaycan"***

## Azərbaycanda koronavirus infeksiyasına 104 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 104 yeni yoluxma faktı qeydə alınıb, həmin şəxslər xüsusi rejimli xəstəxanalara yerləşdiriliblər.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, koronavirus (COVID-19) üçün götürülən analiz nümunələri müsbət çıxmış 1949-cu il təvəllüdlü, şəkərli diabet və xərçəng xəstəsi olan vətəndaşın səhhətinin stabilləşdirilməsi ilə bağlı aparılan reanimasiya tədbirləri nəticə verməyib və pasiyent dünyasını dəyişib. Onun ailə üzvləri, ünsiyyətdə olduğu digər şəxslər müəyyən edilir və karantinə götürülür.

Eyni zamanda, koronavirus infeksiyasına yoluxmuş 38 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Hazırkı dövrədək ölkəmizdə 926 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 101 nəfəri müalicə olunaraq sağalıb, 9 nəfər vəfat edib, 816 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 27 nəfərin vəziyyəti ağır, 35 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 57371 test aparılıb.

## Dövlət Agentliyindən 8103 SMS icazə sistemindən sui-istifadə halları ilə bağlı xəbərdarlıq

Aparılmış araşdırmalar nəticəsində müəyyən edilib ki, vətəndaşlar tərəfindən 8103 SMS icazə sistemində sui-istifadə hallarına yol verilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bəzi vətəndaşların sistem vasitəsi ilə "3" kodu, yəni yaxın qohumunun dəfnində iştirak halı üzrə göndərilmiş müraciətlərinin bu hal üzrə deyil, digər, aidiyyəti olmayan məqsədlər üçün istifadə etdikləri müəyyən edilib.

Agentlik bir daha xatırladır ki, "3" kodu yaxın qohumunun dəfnində iştirak üçün nəzərdə tutulub. Dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qadağan olunub.

Agentlik vətəndaşları bu kimi hallara yol verməməyə çağırıb. Bildirilib ki, belə hallar xüsusi karantin rejiminin tələblərinin pozulması deməkdir və hüquq mühafizə orqanları tərəfindən bununla bağlı ciddi məsuliyyət tədbirləri görüləcək.

## Separatçı rejimdə növbəti "seçki" şousu

### Paşinyanla keçmiş hərbi xunta arasında qarşıdurma şiddətlənir

*Əvvəli 1-ci səh.*

Ermənistanda mütləq hakimiyyəti ələ keçirən Nikol Paşinyan Dağlıq Qarabağda istədiyi namizədin "prezident seçkilərin"də qalib gəlməsini çox istəyirdi. Əslində, "seçkilər"in ilkin nəticələrinə əsasən, Araik Arutyunyanın bir həftə sonra da qalib gələcəyini söyləmək olar.

Bu keçmiş hərbi xuntanın Paşinyan qarşısında növbəti məğlubiyyəti sayıla bilər. Çünki Koçaryan-Sarkisyan koalisiyasının son dayağı Azərbaycanın işğal edilmiş əraziləri idi. Paşinyan Ermənistandakı "məxməri inqilab"dan sonra diqqəti separatçı rejim rəhbərliyinə öz namizədini gətirməyi yönəltmişdi. Seçkilərin nəticələri baş nazirin bu məqsədinə çatdığını və keçmiş hakimiyyətin son dayaq nöqtəsini də məhv etdiyini üzə çıxartdı.

### KİV "Seçkiləri" boykot edib

Separatçı rejimin Dağlıq Qarabağda keçirdiyi "seçkilər"ə medianın da reaksiyası sərt oldu. Belə ki, "seçkilər"in nəticəsi ilə bağlı bir çox KİV demək olar ki, material yayımlamadı, qondarma rejimdə keçirilən "seçkilər"i qınadılar. Erməni mediasının verdiyi məlumata görə, "seçkilər" tam başıpozuqluq, "bardak" vəziyyəti ilə seçilib. "Sputnik Armenia" saytı yazır ki, ilk dəfə seçkiləri izləmək üçün "beynəlxalq müşahidəçilər" də olmayıb. Jurnalistlər üçün koronavirus təhlükəsi üzündən mətbuat mərkəzləri də yaradılmayıb.

Separatçı rejimin yaydığı məlumatda da "seçkilər"in media olmadan keçirildiyi bildirilib. Çoxsaylı pozuntulara dair məlumatlarla yanaşı, səsvermənin nəticələri barədə də narazılıqlar olub. Ermənistandan olan müşahidəçilər sosial şəbəkələrdə qarşılaşdıqları pozuntular barədə statuslar yerləşdiriblər.

Qondarma qurumda "prezident seçkiləri" ilə yanaşı, "parlament seçkiləri" də keçirilib və burada Araik Arutyunyanın bloku olan "Azad Vətən" bloku 40 faizlə qalib gəlib. "Seçkilər"in nəticələrinə görə, "parlament"ə beş partiya keçir.

"Seçkilər"i izləyən Rusiyanın "Kommersant" qəzetinin erməni müxbiri prosesi "analoqsuz hal" adlandırıb. Yazıb ki, maska və əlcəklə keçən "seçki" özündə ciddi riskləri birləşdirir.

Erməni politoloq Artur Atayev isə qeyd edir ki, "DQR" hələ də Paşinyanı siyasi lider kimi qəbul etmir: "Qurumda hərbi sindrom xarakterikdir, yəni döyüş təcrübəsi olmayan siyasətçi nüfuzlu şəxs hesab edilmir. Bu mənada "məxməri inqilab" Ermənistanı "DQR"dən ayırıb. Onlar arasında qarşıdurma daha da dərinləşəcək".

### Xankəndidə etirazlar başladı

"Parlament və prezident seçkiləri"nin nəticəsindən narazı qalan ermənilər etiraz aksiyası keçiriblər. 200-dən çox erməni Xankəndidə "seçki" saxtakarlığına etirazını bildirib, nəticələrin ləğv olunmasını, qondarma qurumun rəhbəri Bako Saakyanın, "polis rəisi" Levon Mnatsakanyan və "Təhlükəsizlik Şurasının katibi" Arşavir Qaramyanın istefasını tələb ediblər. Narazı ermənilər "seçkilər"in mənasız olduğunu deyiblər. Onlar saxtakarlıq və qanunsuzluğun hökm sürməsindən şikayətləniblər.

Erməni mediası da yazır ki, beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər bəyanat verərək "seçkiləri" tanımadıqlarını bəyan ediblər. Bildirilib ki, koronavirusun geniş yayıldığı bir vaxtda Paşinyanın "seçkilər" keçirməkdə məqsədi Qarabağdakı separatçı rejimə öz adamını yerləşdirmək olub.

O da qeyd olunur ki, Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində koronavirus aşkarlanan kənd təcrid edilib. Laçın rayonunun ərazisinə daxil olan kəndə giriş-çıxış qadağan olunub. Bildirilib ki, koronavirusa yoluxanın təmasda olduğu insanların sayı məlum deyil. Onun ailə üzvləri və daha 20 nəfərlə təmasda olduğu ehtimal edilir.

### "Favorit Arutyunyandır"

Terrorçu "Sasna tsrer" partiyasının tərəfdarı olan keçmiş səfir, "Modus vivendi" mərkəzinin rəhbəri Ara Papyan erməni KİV-ə açıqlamasında deyib ki, ötən ayın sonunda keçirilən "seçkiləri" əslində seçki adlandırmaq olmaz. Bütün dünyada kütləvi tədbirlərin ləğv edildiyi, karantin tətbiq olunduğu bir vaxtda Qarabağda 76 min adamı küçələrə çıxarıb seçki məntəqələrinə aparmaq virusun yayılması üçün böyük risk yaradıb: "Deyirlər ki, Qarabağda yoluxma halı aşkarlanmayıb. Kim bunu axtarıb? Cəmi 29 nəfərdən analiz götürüblər. Üstəlik mən orada olmasam da dostlarım bildirir ki, bu seçkilər hansı pozuntularla keçib. Müxtəlif formalarda rüşvət verilməsi, seçicilərin ələ alınması, onlara təzyiqlər və təhdidlər barədə nəhəng həcmdə informasiyalar daxil olub".

Sabiq səfir onu da əlavə edib ki, "prezidentlik" üçün hazırda favorit Arutyunyandır. Çünki o, köhnə klanın nümayəndəsi kimi həm Sarkisyanı, həm də baş nazir Paşinyanı qane edir.

### ABŞ Qarabağ separatçılarına göstərdiyi birbaşa yardımı dayandırıb

Hadisələrin bu səpkidə cərəyan etdiyi bir vaxtda isə ABŞ-dan Ermənistana vurulan tərs şillə bu ölkədə əsl şok effekti yaradıb. Söhbət ABŞ-ın Qarabağ separatçılarına göstərdiyi birbaşa yardımı dayandırmasından gedir. Xatırladaq ki, erməni lobbi təşkilatlarının və konqresmenlərin fəal səylərinə baxmayaraq, ABŞ Qarabağ separatçılarına göstərdiyi birbaşa yardımı dayandırıb. Amerika Tədqiqatları Erməni Mərkəzi yardımın bərpası üçün bütün cəhdlərin səmərəsiz qaldığını bildirib. Erməni mediası yazır ki, yardımın bərpası üçün bütün cəhdlər tam iflasa uğrayıb.

Erməni politoloq Qaqik Hambaryan isə qeyd edir ki, kimsə səhv başa düşürsə və ya fövqəladə bir şey olmadığını iddia edirsə, o halda mən deyərdim ki, bu, Ermənistan hakimiyyətinə siyasi mesaj və Tramp tərəfindən Paşinyana vurulan bir şillədir. Qeyd edib ki, Vaşinqtonun bu demarşı, hətta ABŞ-dakı kifayət qədər nüfuzlu erməni lobbisinin belə Tramp administrasiyasını bu qərarı yenidən nəzərdən keçirməyə inandıra bilmədiyini və Ermənistan-Amerika münasibətlərinin nə qədər utancverici olduğunu göstərir: "1.5 milyon dollar ABŞ üçün "simvolik" və cüzi bir məbləğdir, lakin bunun əhəmiyyəti çox böyük idi. Ermənistanla yanaşı, Qarabağa yalnız ABŞ dövlət səviyyəsində yardım göstərirdi və bununla da faktiki olaraq Bakı və Ankaranı əsəbiləşdirən de-fakto Qarabağı tanımış olurdu. Ankara və Bakı uzun müddətdir ki, bu yardımı ləğv etdirmək istiqamətində iş aparırdı. Ancaq Trampın bu qərarı təkcə Türkiyə-Azərbaycan lobbisinin fəaliyyətinin nəticəsi deyil, həmçinin Vaşinqtonda diqqətdənkənar qalmayan şeylərə yol verən Paşinyanın hərəkətlərinə Vaşinqtonun cavabıdır".

Xatırladaq ki, Paşinyanın 2019-cu ildə ABŞ səfərinin iflasa uğraması, onu Vaşinqtonda federal səviyyədə heç kimin qəbul etməməsi, Tramp administrasiyasının daha ağrılı bir şillə vuracağını göstərirdi və bu da özünü çox gecikdirmədi. Tramp administrasiyasının bu qərarının həm də Ermənistan ictimaiyyətinin bilmədiyi Qarabağ məsələsi ilə bağlı aparılan danışıqlarda baş verən bəzi proseslərlə əlaqəli olduğu da istisna edilmir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

Azərbaycan Milli Elmlər Akademiyası xalqımızın milli sərvətidir. Bu sərvəti qoruyub saxlamalıyıq.

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının Ümummilli Lideri**

# Elmlər Akademiyasının yaradılması prosesi və ilk təsis yığıncağı



Azərbaycanda müstəqil elmi-təşkilati qurumun yaradılması işinə XX əsrin əvvəllərində, daha dəqiq desək, 1923-cü ildə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin təşkili ilə başlanmışdır. Bu təşkilatın fəaliyyəti ölkədə elmi-tədqiqat işlərini istiqamətləndirmək, ekspedisiyaları təşkil etmək, müzakirələr keçirmək baxımından ilk böyük addımlar olsa da, sistemli və fundamental tədqiqatların aparılmasına və tətbiqinə geniş imkan verə bilməmişdir. Bunun ardınca 1929-cu ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin nəzdində yaradılmış Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu Tədqiq və Tətəbbö Cəmiyyətinin funksiyalarından bir qədər irəli getmiş, lakin institutun əsas istiqaməti siyasi və iqtisadi vəzifələrin, tədris-metodiki işlərin həllinə yönəldildiyi üçün ölkə üzrə elm sahəsində xüsusi bir canlanma yaratmaq mümkün olmamışdır. Bununla belə, Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti, habelə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu respublikada elmi fəaliyyətlə məşğul olan yaradıcı qüvvələri bir yerdə cəmləşdirmək, onların elmi fəaliyyətlərini müəyyən olunmuş istiqamətlər üzrə əlaqələndirmək baxımından bir çox faydalı addımlar atmaqla gələcək Akademiya üçün müəyyən zəmin hazırlamışdır. Bu mənada 29 dekabr 1932-ci ildə yaradılmış SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi respublikada o vaxta qədər mövcud olmuş elmi bazanın əsasında təşkil olunduğu üçün səmərəli şəkildə fəaliyyətə başlamışdır. İttifaq Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsində yaradılmış sektorlar konkret olaraq ayrı-ayrı ixtisaslar üzrə elmi araşdırmaların aparılması işlərini təşkil etmiş, buna görə də az sonra Akademiyanın tərkibində müstəqil elmi-tədqiqat institutlarına çevrilə bilmişdilər. SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsində rəhbərlik etmiş tanınmış alimlər *Frans Yulyeviç Levinson - Lessinq (1861-1939), Ruhulla Axundov (1897-1938), Əhəd Yaqubov (1908-1979), Cəfər Kazımov (1897-1968), Artur Rudolfoviç Zifeldt-Simumyaqi (1889-1938), Heydər Hüseynov (1908-1950), Aleksey Alekseyeviç Klimov (1894 -?), Vəli Xuluflu (1894-1939), Yakov Dmitriyeviç Kozin (1896-1973) və başqaları* ilk növbədə konkret elm sahələri üzrə sektorların yaradılması vəzifələrini həyata keçirmiş, ölkə miqyasında elmi fəaliyyətə maraq göstərən yaradıcı qüvvələri işə cəlb etmişdilər. Lakin mövcud strukturun çoxmərtəbəli tabelik prinsipləri əsasında fəaliyyət göstərməsi idarəetmədə müəyyən çətinliklər yaratdığından az sonra mərkəzi təşkilatla birbaşa əlaqəli işləyən yeni qurumun yaradılması zərurətini meydana çıxarmışdır.

Beləliklə, 25 oktyabr 1935-ci ildə akademik **Frans Yulyeviç Levinson - Lessinqin** (1861-1939) rəhbərliyi ilə SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsinin bazasında birbaşa mərkəzi elmi qurumla çalışan Azərbaycan Filialı yaradılmışdır. SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının təşkil edilməsi ilə Azərbaycanın artıq Akademiyada şöbə qismində deyil, filial statusunda fəaliyyət göstərməsinə meydan açılmışdır. Azərbaycan Filialı respublikada elmi qüvvələrin təşkilatlanması üçün xeyli dərəcədə irəli getmişdir. Qısa müddət ərzində Azərbaycan Filialında Kimya, Geologiya, Tarix, Etnoqrafiya və Arxeologiya, Botanika, Zoologiya, Energetika, Fizika və Torpaqşünaslıq sektorları təşkil olunmuşdur. Statusun artması Azərbaycan Filialının tərkibində ayrı-ayrı elmi-tədqiqat institutlarının yaradılmasına imkan vermişdir. Geologiya İnstitutu, Tarix, Dil və Ədəbiyyat İnstitutu, az sonra Dilçilik, Ədəbiyyat institutları, Coğrafiya İnstitutu, Neft və Kimya İnstitutu məhz həmin tarixi mərhələdə açılmışdır. Elmi-tədqiqat institutları səviyyəsində aparılmış tədqiqatlar daha sistemli və ardıcıl olmuş, ölkənin sosial-iqtisadi inkişafının və mədəni mühitinin tələblərinə cavab verərək Azərbaycanda gedən inkişaf proseslərinə özünün müsbət təsirini göstərmişdir. Xüsusən kimya, geologiya, coğrafiya, botanika, energetika istiqamətləri üzrə əldə edilmiş mühüm elmi nəticələr, meydana çıxmış böyük təşəbbüslər SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialına böyük nüfuz qazandırmışdır. Bundan başqa, eyni zamanda humanitar və ictimai elmlər sahəsində çalışan yaradıcı qüvvələrin böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinə hazırlıq sahəsində gördükləri genişmiqyaslı tədqiqat, tərcümə və çap işləri keçmiş Sovetlər İttifaqı miqyasında diqqəti cəlb edən mühüm hadisəyə çevrilmişdir. Bu dövrdə tarix, arxeologiya, dilçilik, etnoqrafiya üzrə də sistemli elmi-tədqiqatların möhkəm bünövrəsi yaradılmışdır. Azərbaycan Respublikasının ilk dəfə olaraq geoloji xəritəsinin hazırlanması, vulkanologiya tədqiqatlarına başlanılması, mezozoy dövrünün öyrənilməsi üzrə birinci addımların atılması, müalicəvi əhəmiyyətə malik olan Naftalan neftinin aşkara çıxarılması, Mingəçevir su-elektrik stansiyasının, Samur-Dəvəçi kanalının yaradılması planlarının meydana çıxması, Azərbaycan florasına həsr edilmiş 3 cildlik materiallar toplusunun, coğrafiya atlasının nəşr edilməsi SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının həyata keçirdiyi mühüm elmi layihələr sırasında xüsusi yer tuturdu.

Böyük Vətən müharibəsi dövründə elmin, ziyalıların böyük rolunu və əhəmiyyətini dərindən hiss edən Sovet rəhbərliyi SSRİ Elmlər Akademiyasının imkanlarının və səlahiyyətlərinin daha da genişləndirilməsi zərurətini nəzərə almalı olmuşdu. Hələ müharibə bitməmiş SSRİ-yə daxil olan müttəfiq respublikalarda İttifaq Akademiyasının filiallarının bazasında mərkəzləşdirilmiş qaydada idarə olunan müstəqil akademiyaların yaradılması işinin davam etdirilməsinə diqqət yetirilmişdir. Bu, 1937-ci illər repressiyasından sonra dövlət səviyyəsində ziyalılara yeni dönüş idi. Beləliklə, 1941-ci ildə Gürcüstanda, 1943-cü ildə Ermənistanda, 1944-cü ildə Özbəkistanda SSRİ Elmlər Akademiyasının həmin respublikalardakı filialları əsasında Elmlər akademiyaları yaradılmasının ardınca Azərbaycanda da filialdan müstəqil elmi qurumun təşkil edilməsinə keçmək qərara alınmışdır. Bu məqsədlə Sovet dövlətinin rəhbərlərinin tapşırığı ilə SSRİ Elmlər Akademiyasının prezidenti, akademik V.İ. Komarov 1944-cü ilin oktyabr ayında Bakıya gələrək Azərbaycan filialının fəaliyyəti ilə şəxsən tanış olmuş, mövcud imkanları öyrənmişdir. Bütün bunlardan sonra o, 24 oktyabr 1944-cü ildə SSRİ Xalq Komissarları Sovetinin sədr müavini Vyaçeslav Mixayloviç Molotova Azərbaycanda Elmlər Akademiyasının yaradılmasının mümkünlüyü barədə təqdimat yazmışdır. SSRİ Elmlər Akademiyasının prezidenti, akademik V.İ. Komarovun təqdimatında deyilirdi: *"Bakıda olduğum müddətdə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının və onun elmi-tədqiqat institutlarının fəaliyyəti ilə tanış oldum. Qeyd etməliyəm ki, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı inkişaf etmiş, möhkəmlənmiş, özündə onlarca görkəmli alimləri birləşdirən və Azərbaycan SSR-dəki sahə elmi-tədqiqat institutlarının işini koordinasiya edən həqiqi elmi mərkəzə çevrilmişdir.*

*Bütün bunlar Azərbaycan xalqının qarşıdan gələn Azərbaycan SSR-də sovet hakimiyyətinin qurulmasının 25 illiyinə töhfə olaraq Azərbaycan SSR Elmlər Akademiyasını yaratmasına haqqı çatdığı barədə fikir söyləməyə əsas verir.*

*Ona görə də Sizin icazənizlə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının və respublikadakı digər elmi-tədqiqat institutlarının bazasında Azərbaycan SSR Elmlər Akademiyasının təşkil edilməsi haqqında təklifi baxılmaq üçün SSRİ Xalq Komissarları Sovetinə təqdim etdim.*

*SSRİ Elmlər Akademiyasının prezidenti, Elmlər Akademiyasında Bazalar və Filiallar Şurasının sədri, akademik V.İ. Komarov".*

Bu uğurlu təqdimatdan az sonra, yəni 23 yanvar 1945-ci ildə SSRİ Xalq Komissarları Soveti Azərbaycanda Elmlər Akademiyasının yaradılması haqqında 131 saylı qərar qəbul etmişdir.

SSRİ hökumətinin qərarının icrası ilə əlaqədar Azərbaycanın rəsmi dövlət qurumlarında və Azərbaycan filialında zəruri hazırlıq işlərinə başlanılmışdır. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin tapşırığı əsasında respublikanın ali məktəblərindən və elmi-tədqiqat institutlarından Azərbaycan SSR Elmlər Akademiyasının ilk təsisçilərini və həqiqi üzvlərini seçmək üçün təkliflər alınmışdır. Bu məqsədlə 1945-ci ilin fevral-mart aylarında respublikada çalışan 41 nəfər tanınmış alimin namizədliyi haqqında təkliflər hazırlanmışdır. Biz hələlik həmin 41 nəfərdən 33 nəfərinin adlarını müəyyən edə bilmişik. Azərbaycan SSR Elmlər Akademiyasının ilk təsisçiləri və ilk akademikləri olmağa namizəd göstərilənlər aşağıdakı şəxslər idilər.

1. **Abramoviç Mixail Vladimiroviç** - *Əməkdar elm xadimi, geologiya-mineralogiya elmləri doktoru, professor*
2. **Əzizbəyov Şamil Əbdülrəhim oğlu** - *geologiya-mineralogiya elmləri doktoru, professor*
3. **Əmirxanov Həbibulla İbrahim oğlu** - *fizika-riyaziyyat elmləri doktoru, professor*
4. **Əlizadə Ələşrəf Əbdülhüseyn oğlu** - *Stalin mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru*
5. **Balakişiyev Abdul Hüseyn oğlu** - *Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor*
6. **Hacıbəyov Üzeyir Əbdülhüseyn oğlu** - *SSRİ Xalq artisti, professor*
7. **Qrossheym Aleksandr Alfonsoviç** - *SSRİ Elmlər Akademiyasının müxbir üzvü, biologiya elmləri doktoru, professor*
8. **Hüseynov Heydər Nəcəf oğlu** - *fəlsəfə elmləri doktoru, professor*
9. **Dadaşov Sadıq Ələkbər oğlu** - *Stalin mükafatı laureatı, Əməkdar elm xadimi, SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, professor*
10. **Yeqorov Konstantin Aleksandroviç** - *Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor*
11. **Yeşman İosif Qavriloviç** - *Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor*
12. **Qarayev Abdulla İsmayıl oğlu** - *Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor*
13. **Qaşqay Mirəli Seyidəli oğlu** - *geologiya-mineralogiya elmləri doktoru, professor*
14. **Makovelski Aleksandr Osipoviç** - *Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor*
15. **Məmmədəliyev Yusif Heydər oğlu** - *kimya elmləri doktoru, professor*
16. **Məmmədov Şamxal Əliməmməd oğlu** - *kimya elmləri doktoru, professor*
17. **Məlikov Malik Məmmədhüseyn oğlu** - *Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor*
18. **Mirqasımov Mirəsədulla Mirələsgər oğlu** - *Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor*
19. **Vəkilov Səməd Vurğun Yusif oğlu** - *İki dəfə Stalin mükafatı laureatı, Əməkdar incəsənət xadimi, şair*
20. **Topçubaşov Mustafa Ağabəy oğlu** - *Stalin mükafatı laureatı, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor*
21. **Useynov Mikayıl Ələsgər oğlu** - *Stalin mükafatı laureatı, Əməkdar incəsənət xadimi, tibb elmləri doktoru, professor*
22. **Şirəliyev Məmmədağa Şirəli oğlu** - *filologiya elmləri doktoru, professor*
23. **Şirokoqorov İvan İvanoviç** - *SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor*
24. **Yaqubov Əhəd Ələkbər oğlu** - *Stalin mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor*
25. **Qutırya Viktor Serafimoviç** - *kimya elmləri doktoru, professor*
26. **Rusanova Valentina Nikolayevna** - *biologiya elmləri doktoru, professor*
27. **Derjavin Aleksandr Nikolayeviç** - *biologiya elmləri doktoru, professor*
28. **Solovkin Andrey Nikolayeviç** - *geologiya-mineralogiya elmləri doktoru*
29. **Sultanov Əzəl Cavad oğlu** - *geologiya-mineralogiya elmləri doktoru*
30. **Yaqubov Mirxaliq Mirqasım oğlu** - *Əməkdar elm xadimi, tibb elmləri doktoru*
31. **Klimov Aleksey Alekseyeviç** - *etnoqraf, professor*
32. **Məmmədov Zülfüqar Mehdi oğlu** - *tibb elmləri doktoru, professor*
33. **Əliyev Şıxbala Əbülfəz oğlu** - *kimya elmləri doktoru, professor.*

Adları qeyd edilən alimlərdən sıra ilə ilk 24 nəfəri müzakirə üçün hazırlanmış siyahıda öz əksini tapmışdır. Qalan 9 nəfərin isə Azərbaycan Elmlər Akademiyasına həqiqi üzv seçilməsi haqqında ayrı-ayrı elmi-tədqiqat institutları və ali məktəblər tərəfindən verilmiş təqdimatlar arxiv materialları içərisindən əldə edilmişdir. Hələlik adlarını müəyyən edə bilmədiyimiz daha 8 nəfər haqqında məlumatları tapıb üzə çıxarmaq, ehtimal olunan siyahını tamamlamaq elm xəzinəmizi araşdıranların qarşısında duran vəzifədir.

Qeyd etmək lazımdır ki, müəyyən olunmuş namizədlər müvafiq dairələrdə müzakirə edildikdən sonra onlardan 24 nəfəri daha yüksək səviyyədə baxılmaq üçün tövsiyə edilmişdir. Həmin 24 nəfər yuxarıda təqdim etdiyimiz Abramoviç Mixail Vladimiroviçdən başlanan siyahıda sıra üzrə Əhəd Yaqubovun da daxil olduğu şəxslərdən ibarət olmuşdur. Təqdim edilən adlı siyahı rəsmi dairələrdə təhlil edilib müzakirələrdən keçdikdən sonra artıq Azərbaycan SSR Elmlər Akademiyasının ilk həqiqi üzvlərinin və təsisçilərinin müəyyən edilməsi üçün konkret elm sahələri üzrə namizədlərin siyahısının tərtib edilməsi tövsiyə olunmuşdur. Bu dəfə 24 nəfərin sırasından 4 bölmə üzrə 14 nəfərin siyahısı və onlar haqqında məlumatlar hazırlanaraq aidiyyəti dövlət orqanlarına göndərilmişdir. Bu sənəd həm də yaradılmaq ərəfəsində olan Azərbaycan SSR Elmlər Akademiyasında hansı elmi bölmələrin təşkil edilməsinin nəzərdə tutulmasını müəyyən etmək baxımından da əhəmiyyətlidir. Bu, 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlüyünə ən şanslı olan alimlərin və ziyalıların təqdimatıdır. Həmin siyahı aşağıdakı kimi idi:

**"Azərbaycan SSR-in ali təhsil, elmi-tədqiqat müəssisələri və ictimai təşkilatları tərəfindən təqdim olunanlardan Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlüyünə nəzərdə tutulanların siyahısı**

**I. Geologiya-Coğrafiya Elmləri və Neft Bölməsi**

*Neft geologiyası üzrə*
1. Əlizadə Ələşrəf Əbdülhüseyn oğlu
2. Yaqubov Əhəd Ələkbər oğlu

*Mədən geologiyası üzrə*
1. Əzizbəyov Şamil Əbdülrəhim oğlu
2. Qaşqay Mirəli Seyidəli oğlu

*Neft kimyası üzrə*
1. Məmmədəliyev Yusif Heydər oğlu

**II. Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi**

*Fizika üzrə*
1. Əmirxanov Həbibulla İbrahim oğlu

*Texnika üzrə*
1. Yeşman İosif Qavriloviç

**III. Biologiya və Kənd təsərrüfatı Elmləri Bölməsi**

*Biologiya üzrə*
1. Qrossheym Aleksandr Alfonsoviç

*Tibb üzrə*
1. Mirqasımov Mirəsədulla Mirələsgər oğlu
2. Topçubaşov Mustafa Ağabəy oğlu

**IV. İctimai Elmlər Bölməsi**

*Ədəbiyyat və incəsənət üzrə*
1. Vəkilov Səməd Vurğun Yusif oğlu
2. Hacıbəyov Üzeyir Əbdülhüseyn oğlu

*Fəlsəfə və filologiya üzrə*
1. Hüseynov Heydər Nəcəf oğlu
2. Makovelski Aleksandr Osipoviç".

Araşdırmalar göstərir ki, təsisçilərin müəyyən edilməsinə təxminən cəmisi bir neçə gün qalmış hazırlanan bu siyahı da son qəti qərarı ifadə edə bilməmişdir. Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması haqqında Xalq Komissarları Sovetinin qərarı imzalanmaq üçün təqdim edilərkən ən yuxarı səviyyədə məsələyə yenidən baxılmış və müəyyən dəyişikliklər edilmişdir. Azərbaycan SSR Elmlər Akademiyasının ilk tərkibinə son məqamda edilmiş ixtisarlar və əlavələr aşağıdakılardan ibarət olmuşdur:

**İXTİSARLAR:**

Adları həm ilk 41 nəfərin və 24 nəfərin siyahısında, həm də 14 nəfərlik yekun siyahıda olan, bütün müzakirələrdən keçmiş Stalin mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının direktoru, professor **Əhəd Yaqubovun,** Fizika İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor **Həbibulla Əmirxanovun** və Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor **Aleksandr Makovelskinin** adları yekun siyahıdan çıxarılmışdır.

**ƏLAVƏLƏR:**

Qalan 11 nəfərlik heyət Azərbaycan SSR Elmlər Akademiyasının tərkibində ayrı-ayrı elmi bölmələri təşkil etmək baxımından yetərli olmadığından "Siyahı"ya daha 4 nəfərin adı əlavə olunmuşdur. Əlavə olunanlardan 3 nəfər şanslı elm xadimi adı əvvəlcə tərtib edilmiş siyahılarda olan, lakin hansı səbəbdənsə axırıncı 14 nəfərlik yekun siyahıya daxil edilməmiş aşağıdakı alimlər idilər:

1. **Dadaşov Sadıq Ələkbər oğlu** - Stalin mükafatı laureatı, Əməkdar elm xadimi, SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, professor
2. **Useynov Mikayıl Ələsgər oğlu** - Stalin Mükafatı laureatı, Əməkdar incəsənət xadimi, SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, professor
3. **Şirokoqorov İvan İvanoviç** - SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor

Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlüyünə 27 mart 1945-ci ildə seçilmiş ən şanslı namizəd əvvəllər tərtib edilmiş heç bir siyahıda adı göstərilməmiş, bir gün qalmış, bəlkə də elə həmin gün son anda siyahıda yer alan tanınmış yazıçı, filologiya elmləri namizədi **Mirzə Əjdər oğlu İbrahimov** olmuşdur. Mirzə İbrahimov bu zaman "Giqantlar ölkəsində" kitabı (1935), Azərbaycan teatrlarında böyük uğurla tamaşaya qoyulan "Həyat" (1935), "Madrid" (1937), "Məhəbbət" (1941) pyesləri, bir çox hekayələri və məqalələri ilə tanınır, artıq ölkə miqyasında qəbul olunurdu. O, 1935-1937-ci illərdə SSRİ Elmlər Akademiyasının Leninqraddakı Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsil almış, görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin demokratik görüşləri haqqında namizədlik dissertasiyası müdafiə etmişdi. Mirzə İbrahimovun 1939-cu ildə nəşr edilmiş "Böyük demokrat" kitabı elmi-ədəbi mühitdə böyük maraq doğurmuşdu. O vaxta qədər Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinin rəisi, Xalq Maarif Komissarı vəzifələrində çalışmış Mirzə İbrahimov cəmiyyətdə aparıcı mövqeyə malik olan şəxsiyyətlərdən biri kimi də nüfuz qazanmışdı.

Beləliklə, 1945-ci ilin 23 yanvarından başlanan axtarışlar, yoxlamalar və müzakirələr iki aydan çox davam etmiş və nəhayət, Azərbaycan SSR Elmlər Akademiyasının 15 nəfərlik ilk təsisçiləri - birinci akademikləri müəyyən olunmuşdur. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Teymur Quliyevin imzaladığı və işlər idarəsinin müdiri A. Bokovetsin təsdiq etdiyi "Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması haqqında"kı 27 mart 1945-ci il tarixli, 316 saylı qərarla ölkəmizdə Elmlər Akademiyasının təsis edilməsi rəsmiləşdirilmiş, Akademiyanın ilk Nizamnaməsi təsdiq olunmuşdur. Qərarda adları yuxarıda göstərilmiş görkəmli alimlər Azərbaycan SSR Elmlər Akademiyasının ilk təsisçiləri və birinci akademikləri seçilmək üçün tövsiyə edilmişlər. Azərbaycan SSR Elmlər Akademiyasının ilk akademikləri həm Azərbaycanda, həm də Sovetlər İttifaqı miqyasında tanınan, qəbul olunan alimlərdən ibarət idi. Azərbaycanda akademik elmin qızıl fondunu təşkil edən həmin görkəmli alimlərin elm sahəsindəki xidmətləri ilə yanaşı, yüksək dövlət mükafatları, fəxri adları və ya məsul vəzifələrdə çalışmaları da nəzərə alınmışdı. Onlardan 6 nəfəri Stalin mükafatı laureatı, 1 nəfəri həm də SSRİ Xalq artisti, 6 nəfəri eyni zamanda Əməkdar elm xadimi, 4 nəfəri isə Əməkdar incəsənət xadimi idilər. Heç şübhəsiz, Azərbaycan rəhbərliyinin təqdim etdiyi namizədlər Kreml rəsmiləri və SSRİ Elmlər Akademiyasının Rəyasət Heyəti ilə də razılaşdırılmışdı. Beləliklə, Azərbaycan SSR Elmlər Akademiyasının ilk tərkibi 15 nəfərlik aşağıdakı adlı-sanlı alimlərdən təşkil olunmuşdu. Rus dilində yazılan siyahı kiril əlifbasının sırası üzrə tərtib edilmişdi:

1. **Əzizbəyov Şamil Əbdülrəhim oğlu** - *geologiya-mineralogiya elmləri doktoru, professor*
2. **Əlizadə Ələşrəf Əbdülhüseyn oğlu** - *Stalin mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru*
3. **Vəkilov Səməd Vurğun Yusif oğlu** - *İki dəfə Stalin mükafatı laureatı, Əməkdar incəsənət xadimi, şair*
4. **Hacıbəyov Üzeyir Əbdülhüseyn oğlu** - *Stalin mükafatı laureatı, SSRİ Xalq artisti, Əməkdar incəsənət xadimi, professor*
5. **Qrossheym Aleksandr Alfonsoviç** - *SSRİ Elmlər Akademiyasının müxbir üzvü, biologiya elmləri doktoru, professor*
6. **Hüseynov Heydər Nəcəf oğlu** - *fəlsəfə elmləri doktoru, professor*
7. **Dadaşov Sadıq Ələkbər oğlu** - *Stalin mükafatı laureatı, Əməkdar elm xadimi, SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, professor*
8. **Yesman İosif Qavriloviç** - *Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor*
9. **İbrahimov Mirzə Əjdər oğlu** - *Əməkdar incəsənət xadimi, yazıçı*
10. **Qaşqay Mirəli Seyid Əli oğlu** - *geologiya-mineralogiya elmləri doktoru, professor*
11. **Məmmədəliyev Yusif Heydər oğlu** - *kimya elmləri doktoru, professor*
12. **Mirqasımov Mirəsədulla Mirələsgər oğlu** - *Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor*
13. **Topçubaşov Mustafa Ağabəy oğlu** - *Stalin mükafatı laureatı, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor*
14. **Useynov Mikayıl Ələsgər oğlu** - *Stalin mükafatı laureatı, Əməkdar incəsənət xadimi, SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, professor*
15. **Şirokoqorov İvan İvanoviç** - *SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor.*

SSRİ Elmlər Akademiyasının prezidenti, akademik L.Komarov Azərbaycan rəhbərliyinə göndərdiyi xüsusi məktubda Əşrəf Əlizadə, Mirəsədulla Mirqasımov və Mustafa Topçubaşovdan birinin yeni yaradılacaq Akademiyanın prezidenti olmasını təklif etmişdi. Məktubda həmçinin Heydər Hüseynovun Akademiyanın vitse-prezidentliyinə namizədliyi məqsədəuyğun sayılmışdı.

Azərbaycan SSR Elmlər Akademiyasının ilk tərkibi müəyyən edildikdən sonra 31 mart 1945-ci ildə keçirilmiş birinci Ümumi yığıncaqda Akademiyanın həqiqi üzvlüyünə seçkilər keçirilmiş və təşkilati məsələyə baxılmışdır. Yuxarıdakı siyahıda adları qeyd olunan 15 nəfər görkəmli elm, ədəbiyyat və incəsənət xadimləri rəsmi olaraq Elmlər Akademiyasının həqiqi üzvləri seçilmişlər. Bundan sonra Akademiyanın rəhbər heyətinin seçilməsi məsələsi həll edilmişdir. Ümumi yığıncaq Əməkdar elm xadimi, akademik **Mirəsədulla Mirqasımovun** Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti, akademik **Şamil Əzizbəyovun** və akademik **Heydər Hüseynovun** vitse-prezident (prezident müavinləri), akademik **Mirəli Qaşqayın** akademik-katib vəzifələrinə seçilmələri barədə qərar qəbul etmişdir. Ümumi yığıncaqda həmçinin aşağıdakı tərkibdə 5 nəfərdən ibarət olan Rəyasət Heyətinin ilk üzvləri formalaşdırılmışdır: **Mirəsədulla Mirqasımov, Şamil Əzizbəyov, Heydər Hüseynov, Mirəli Qaşqay və Yusif Məmmədəliyev.**

Azərbaycan akademikləri ümumi yığıncaqda SSRİ Elmlər Akademiyasının prezidenti, akademik V.İ.Komarovu və SSRİ Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü, akademik İ.İ.Meşşaninovu Azərbaycan SSR Elmlər Akademiyasının fəxri üzvü seçmişlər.

Azərbaycan SSR Elmlər Akademiyasının ilk Ümumi yığıncağında SSRİ Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü, akademik **İvan İvanoviç Meşşaninov** təbrik nitqi ilə çıxış etmişdir.

Beləliklə, 31 mart 1945-ci il tarixdə Azərbaycan SSR Elmlər Akademiyası təsis olunmuşdur. Elmlər Akademiyasının ilk təsisçiləri olan görkəmli elm, ədəbiyyat və incəsənət xadimləri Azərbaycan elminin və ictimai-ədəbi fikrinin inkişafında böyük xidmətlər göstərmişlər. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlüyünə namizədliyi göstərilən, lakin ilk akademiklərin sırasında yer ala bilməyənlərin böyük əksəriyyəti sonrakı illərdə Akademiyanın həqiqi və müxbir üzvləri seçilmiş, XX əsr ərzində uzun müddət elm, təhsil və səhiyyə sahələrində rəhbər vəzifələrdə çalışmış, dövlət qulluğunda təmsil olunmuşlar.

Azərbaycan Elmlər Akademiyasının yaradılması ölkəmizin elm tarixinin şərəfli hadisəsidir. Azərbaycan cəmiyyətinin sonrakı bütün inkişaf mərhələlərində Elmlər Akademiyası mühüm rol oynamışdır. Elmlər Akademiyası ölkəmizdə ziyalı qüvvələrinin formalaşdırılması, qorunub saxlanılması və möhkəmləndirilməsi işinə sanballı töhfələr vermişdir. Elmlər Akademiyası həmişə azərbaycançılıq məfkurəsinin əsas mərkəzlərindən biri olmaq funksiyasını məsuliyyətlə həyata keçirmişdir. Azərbaycan cəmiyyətində müasirləşmə və yeniləşmə istiqamətində həyata keçirilən proqramların icrasında Milli Elmlər Akademiyası mühüm vəzifələrin əsas daşıyıcılarından biri kimi yaxından iştirak etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci tarixi mərhələdə Ulu Öndərin böyük qayğısı ilə yaradılmasının 30 illiyi ilə əlaqədar olaraq 1970-ci ildə "Xalqlar dostluğu" ordeni ilə təltif olunmuşdur.

Fəaliyyət göstərdiyi 75 il ərzində Azərbaycan Milli Elmlər Akademiyasına görkəmli elm xadimləri Mirəsədulla Mirqasımov (1945-1947), Yusif Məmmədəliyev (1947-1950 və 1957-1961), Musa Əliyev (1950-1957), Rüstəm İsmayılov (1957-1970), Zahid Xəlilov (1962-1967), Həsən Abdullayev (1970-1983), Eldar Salayev (1984-1996), Fərəməz Maqsudov (1997-2000), Mahmud Kərimov (2001-2013), Akif Əlizadə (2013-2019) rəhbərlik etmişlər. Hazırda Azərbaycan Milli Elmlər Akademiyası 24 oktyabr 2019-cu il tarixdən akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə inkişaf yolunu davam etdirməkdədir. İndiki mərhələdə AMEA-da müstəqil dövlətçiliyin, azərbaycançılıq ideallarının daha da möhkəmləndirilməsinə, elmdə sahibkarlıq və innovasiya fəaliyyətinin, habelə beynəlxalq əlaqələrin genişləndirilməsinə, mövcud strukturun təkmilləşdirilməsi və optimallaşdırılmasına səmərəli xidmət etməsinin təmin olunması üçün zəruri islahatlar həyata keçirilməkdədir.

